# UNİKAL

№36 (2170) 29 sentyabr 2023-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru


# BU, MÜTLƏQ QƏLƏBƏDİR:

## Qarabağdakı qondarma rejim rəsmən süqut etdi





## "Ermənistanın mehriban qonşu olmaqdan başqa yolu yoxdur" - Prezidentin nümayəndəsi

*"Azərbaycan Qarabağın erməni sakinlərinin öz ana dilindən, mədəniyyətindən və dinindən istifadə etməklə bağlı hüquq və imkanlarını heç bir şəkildə məhdudlaşdırmaq niyyətində deyil".*

*"Unikal" xəbər verir ki, bunu Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov BBC-yə müsahibəsində deyib.*

*"Bizim üçün heç vaxt keçilməsinə icazə verməyəcəyimiz yeganə qırmızı xətt suverenliyimizi və ərazi bütövlüyümüzü şübhə altına ala biləcək məsələlərdir", - o vurğulayıb.*

*Onun sözlərinə görə, Azərbaycan və Ermənistanın mehriban qonşu olmaqdan başqa yolu yoxdur: "Əgər bizim bir-birimizlə düşmənçilik üçün heç bir əsasımız yoxdursa, Azərbaycan və Ermənistan liderləri ən yüksək siyasi səviyyədə ərazi bütövlüyünün tanındığını bəyan ediblərsə, demək, bizim sadəcə olaraq mehriban qonşular olmaqdan başqa yolumuz yoxdur".*

Səh.2

## "Azərbaycan yeni mərhələnin açarı və baş rolun ifaçısıdır"



*Ümid Partiyasının sədri İqbal Ağazadə "Unikal"a müsahibə verib. O, Azərbaycanın lokal xarakterli antiterror əməliyyatında qazandığı uğurlardan, Ruben Vardanyanın həbsindən sonra növbənin hansı separatçılarda olacağından, Ermənistanın Azərbaycanla nə vaxt sülh müqaviləsi imzalayacağından...*

Səh.4

## Zakir Qaralovun şirkətində misli görünməmiş böhran...




*"Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" ASC-nin vergi borcu artmaqda davam edir. Belə ki, bir neçə ay əvvəl ASC-nin vergi borcu 13 milyon 960 min 626 manat təşkil edirdi. Bu müddət ərzində şirkətin vergi borcu daha 65 min 927 manat artıb. Beləliklə, şirkətin bu günə olan vergi borcu...*

Səh.8

## Muxtar Babayev Söyüdlü kəndində toplantı keçirdi



*Gədəbəy rayonunun Söyüdlü kəndində fəaliyyət göstərən "Azərbaycan Beynəlxalq Mədən Şirkəti"(AIMC) bütün tövsiyələri, monitorinq nəticələrini qəbul edib və pozuntu hallarının olduğunu etiraf edib. "Unikal" xəbər verir ki, bunu Söyüdlü kəndində tullantıxana sahəsində monitorinqlərin aparılması və mövcud...*

Səh.12

# "Həyatımızı alt-üst etdilər" - Xuraman Şuşalı



***Müğənni Xuraman Şuşalı Şuşaya yollanıb.***

Axşam.az xəbər verir ki, sənətçi video yayımlayaraq, ailəsindən danışıb. O bildirib ki, ailəsində hamı musiqiçi olub: "Ailəmizdə qardaşım qarmon, bacım pianoçu, mən isə solo ifa edirdim. Qardaşım nağaraya gedirdi, sonra qarmon sinfinə keçdi. Evdə nağaramız da var idi. Evimizdə gecələr konsert olurdu. Gecələr qardaşım qarmon, bacım piano ifa edirdi. Atam karandaşı götürürdü, stola vururdu, mən isə oxuyurdum. Qonşular əl çalırdı. Özümü o vaxt ulduz hesab edirdim. Şuşada məktəblərdə oxuyurdum, Bakıdan belə çəkiliş gəlirdi. Allah düşmənləri yox etsin, həyatımızı alt-üst etdilər".

Qeyd edək ki, Xuraman "Evdəkilərə salam" verilişinin çəkilişi ilə əlaqədar Şuşaya yollanıb.

# "Jony-nin məşhurluğu mənim əməyimdir" - Elman



***Azərbaycan əsilli rusiyalı müğənni və musiqiçi Elman (Elman Zeynalov) "Vopros rebrom" yutub layihəsinin qonağı olub.***

Axşam.az xəbər verir ki, veriliş zamanı Elmandan bir vaxtlar yardım etdiyi müğənni Jony (Cahid Hüseynli) soruşulub. Elmana Jony-nin məşhur olmasında əməyi olduğu, əgər o olmasaydı ifaçının aqibətinin necə olacağı soruşulub.

"Fərqli düşünə bilmirəm, çünki bu, artıq baş verib. Vaxtı geri qaytara bilmirəm, amma mənə elə gəlir ki, bu, bütün komandanın zəhmətidir. Biz olmasaq nə olardı? Yəqin ki, bizdən əvvəl necə idisə, elə hələ də olardı" deyə, Elman cavab verib.

Elmandan Jony-nin onların şirkətindən ayrıldıqdan sonra niyə daha məşhur olduğu soruşulduqda isə o, "Ancaq rəqəmlərlə saya bilirəm. "Kamnepad" bizim buraxdığımız son trekdir. Rəqəmləri götürsək, Jony-nin karyerasında RAAVA-dan sonra Kometa" trekindən daha böyük bir mahnı yoxdur. Rəqəmlərə görə, mən hələ razı deyiləm. Jony-nin məşhurluğu tamamilə mənim əməyimdir" cavabını verib.

Elman niyə hələ də Azərbaycan dilində mahnı oxumamasından bəhs edib: "Sadəcə, öz ana dilimdə çox gülməli danışıram. Mənim ləhcəm yeni gəlib rus dilini öyrənməyə başlayan uşaqlara bənzəyir, mən azərbaycanca təxminən eyni danışıram. Bəzi sözləri bilirəm".



# "Sənə "əlvida" demək qismətim olmadı" - Flora Kərimova

***"Səninlə üz-üzə gəlmədik ki, "istedadlısan, səsin ifan qədər gözəldir" deyim".***

Bu sözləri Xalq artisti Flora Kərimova bir neçə gün əvvəl dünyasını dəyişən müğənni Emil Rəhmanoğlu ilə bağlı paylaşımında yazıb. F.Kərimova onun ifasını yayımlayaraq, bunları əlavə edib:

"Yoxluğuna və ağrı-acının nöqtəsinə də "əlvida" demək qismətim olmadı. Tanrı səni taleyinə bağışlasın, Emil. Doğmalarına səbr diləyirəm. Allah rəhmət eləsin!".

Qeyd edək ki, Emil Əməkdar artist Rəhman Rəhmanoğlunun övladı idi.

# Nəsrinlə eşq yaşadığı iddialarına cavab verdi

***Türkiyəli aktyor Uraz Kayqılaroğlu şəxsi həyatı ilə bağlı sualları cavablandırıb.***



Axşam.az xəbər verir ki, aktyor azərbaycanlı aktrisa Nəsrin Cavadzadə ilə haqlarında çıxan eşq iddialarını yalanlayıb.

"Nəsrin mənim ən yaxşı dostumdur. Aramızda eşq yoxdur".

Uraz eks-xanımı Melis İşitenlə yenidən barışması suallarına isə belə reaksiya verib:

"Melis də Nəsrin kimi dostumdur. Onunla övladımız var. Davamlı olaraq əlaqədəyik. Ailəvi vaxt keçirtmək xoşumuza gedir".

Qeyd edək ki, bir müddət əvvəl Nəsrin sosial media hesabında urazla səmimi görüntülərini yayaraq şayiələrin yaranmasına səbəb olmuşdu. Onlar son olaraq birgə "Üç kuruş" serialında baş rolları ifa ediblər.

# Müğənni toy tarixini açıqladı

***Müğənni Sevinc Musayeva toy tarixini açıqlayıb.***

Axşam.az xəbər verir ki, sənətçi oktyabrın 10-da nikah masasına oturacaq. Əli adlı böylə nişanlanan Sevinc özəl gününə sənət dostlarını da dəvət edib.

Qeyd edək ki, cütlüyün nişan mərasimi iyulda, nikahı isə bu ayın əvvəlində olub.



## Sahibə Qafarova İrlandiyada Qarabağdakı son vəziyyətdən danışıb

***İrlandiyada işgüzar səfərdə olan Milli Məclisin sədri Sahibə Qafarova İrlandiya Parlamentinin Nümayəndələr Palatasının sədri Şon Oferghail ilə görüşüb.***

Bu barədə "Unikal"a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Milli Məclisin sədrini salamlayan İrlandiya Parlamenti Nümayəndələr Palatasının sədri Azərbaycan parlamentinin rəhbərinin İrlandiyaya ilk səfərindən məmnunluğunu ifadə edib. Nümayəndələr Palatasının sədri İrlandiya parlamentində Azərbaycanın Milli Məclisi ilə dostluq qrupunun yaradılması üzərində iş getdiyini diqqətə çatdırıb və bunun parlamentlərarası əlaqələrin daha da gücləndirilməsinə töhfə verəcəyinə inamını ifadə edib.

Görüşdə Milli Məclisin sədri Sahibə Qafarova Cənubi Qafqazda, o cümlədən, Azərbaycanda, xüsusən də Qarabağ bölgəsində vəziyyət haqqında məlumat verib. O, təəssüflə qeyd edib ki, artıq 3 ilə yaxındır ki, Ermənistan bu sənədi imzalamayıb. Milli Məclisin sədri, həmçinin diqqətə çatdırıb ki, Ermənistan "blokada", "humanitar böhran" kimi əsassız iddialarla beynəlxalq miqyasda Azərbaycana qarşı siyasi şantajını davam etdirib.

Spikerin sözlərinə görə, Ermənistan bu müddət ərzində Qarabağdan 10 min hərbçisini çıxarmayıb, onlara maddi dəstək verib, silah-sursatla təmin edib, Azərbaycanın Qarabağ bölgəsindəki qondarma rejimi dəstəkləyib. Sahibə Qafarova Ermənistanın ötən dövr ərzində sərhəddə təxribatlar törətdiyini, Azərbaycan ərazilərini minalamaqda davam etdiyini də diqqətə çatdırıb. Onun sözlərinə görə, ötən həftə bu təxribatların sayı daha da artıb. Belə ki, erməni kəşfiyyat-diversiya qrupları tərəfindən terror məqsədilə quraşdırılmış minaların partlaması nəticəsində mülki şəxslər və hərbi qulluqçularımız həlak olub və yaralanıb. Bütün bunlar Azərbaycanın lokal antiterror tədbirlərinə başlamasına səbəb olub.

Sahibə Qafarova deyib ki, bu tədbirlərin məqsədi Azərbaycanın Qarabağ regionunda qeyri-qanuni erməni silahlı qüvvələrinin mümkün hərbi təxribatlarının və terror aktlarının qarşısını almaq, terrorçu dəstələri Azərbaycanın Qarabağ regionundan çıxarmaq olmuşdur. Lokal xarakterli anti-terror tədbirləri həmçinin, dinc əhali, o cümlədən ərazidə aparılan bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədi daşımışdır. O, xüsusilə qeyd edib ki, antiterror tədbirləri zamanı mülki əhali və obyektlər hədəfə alınmayıb və bu tədbirlər beynəlxalq hüquqa, o cümlədən beynəlxalq humanitar hüquqa tam uyğun şəkildə reallaşdırılıb.

Spiker Sahibə Qafarova bildirib ki, sentyabrın 20-də Qarabağın erməni sakinlərinin nümayəndələrinin müraciətini nəzərə alaraq tam atəşkəs haqqında razılaşma əldə olunub. Bu razılaşmaya əsasən, Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoymalı, döyüş mövqelərindən və hərbi postlardan çıxmalı və tam şəkildə tərksilah olunmalıdır. O, hazırda bu prosesin həyata keçirildiyini söyləyib.

Milli Məclisin sədri bildirib ki, hazırda Qarabağda yaşayan erməni əhalisinin Azərbaycan cəmiyyətinə inteqrasiyası ilə bağlı müzakirələr aparılır və artıq Qarabağın erməni icmasının nümayəndələri ilə 2 görüş keçirilib. Xankəndinə humanitar yardım və ərzaq göndərilib. Ermənistana getmək istəyən ermənilərin bölgəni maneəsiz, problemsiz tərk etməsi üçün lazımi şərait yaradılıb, Qarabağda yaşamaq istəyən insanlar orada qalırlar. Spiker Sahibə Qafarova nəhayət, sülh sazişinin imzalanacağına ümid etdiyini bildirib.

# Zakir Qaralovun şirkətində misli görünməmiş böhran...

## "Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası"nın vergi borcu ağlasığmaz həddə çatdı

***"Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" ASC-nin vergi borcu artmaqda davam edir. Belə ki, bir neçə ay əvvəl ASC-nin vergi borcu 13 milyon 960 min 626 manat təşkil edirdi. Bu müddət ərzində şirkətin vergi borcu daha 65 min 927 manat artıb. Beləliklə, şirkətin bu günə olan vergi borcu 14 milyon 26 min 553 manat təşkil edir.***

"Akkord"un 13 milyon manat vergi borcu olan zaman şirkətdən Qaynarinfo-ya daxil olan açıqlamada bildirilirdi ki, hər hansı bir şirkətə vergi orqanının qərarı əsasında yazılmış vergi məbləği onun təsdiqlənməsi həqiqi borc anlamına gəlmir.

Açıqlamada həmçinin qeyd edilirdi ki, vergi borcu kimi yazılan məbləğə etiraz olaraq inzibati qaydada məhkəməyə şikayət verilib. Bu işin nəticəsi barədə məlumat yoxdur.



Bəzi iddialara görə, "Akkord"un iri məbləğli vergi borcunun yaranması şirkətin böhran keçirməsi ilə bağlıdır.

Xatırladaq ki, adıçəkilən korporasiya keçmiş baş prokuror Zakir Qaralovun şirkəti kimi tanınıb. Bu iddia indiyə qədər təkzib edilməyib.

Onu da deyək ki, bu ilin mayında KİV-də "Akkord"un törəmə şirkətlərinin əksəriyyətinin də külli miqdarda vergi borcu olduğu açıqlanmışdı. Həmin məlumatda bildirilirdi ki, məsələn, "Akkord Asfalt" MMC-nin bu günə olan vergi borcu 2 932 065.29 AZN təşkil edir. "Akkord"a daxil olan və tikinti sektorunda tanınan "Körpü Tunel Tikinti" MMC-nin də vergi borcu iri məbləğlə ifadə olunur. Şirkətin həmin tarixə vergi borcu 8 904 803.54 AZN kimi göstərilmişdi. "Akkord"a daxil olan iri şirkətlərdən biri olan "Akkord Hydrotechnical Construction" MMC-nin 1171443.48 AZN, "Akkord Beton" MMC-nin 3 634.40 AZN , "Accopen" MMC-nin 4 990.43 AZN, "Akkord Qum" MMC-nin 9 578.90 AZN, "Deutsche Fassaden Technologien" MMC-nin isə 189 080.03 AZN vergi borcu olduğu, bir sözlə, adıçəkilən şirkətlərin toplam vergi borcunun 13 215 596.07 AZN təşkil etdiyi bildirilmişdi. Həmin məbləğ dəyişməyibsə, onun üzərinə ASC-nin özünün vergi borcunu üstünə gələndə məlum olur ki, şirkətin dövlətə ümumilikdə 27 milyon manatdan çox vergi borcu var.

Bir müddət öncə "Unikal" qəzeti də yazmışdı ki, Zakir müəllim Baş prokuror postundan yola salındıqdan sonra "Akkord" ciddi sıxıntılar yaşamağa başlayıb. İddialara görə, uzun müddət Azərbaycanda ən böyük tikinti layihələrinin icrasını həyata keçirərək, dövlət büdcəsindən milyardlarla manat pay alan, paytaxtda və iri şəhərlərdə çoxlu sayda yaşayış kompleksləri, qeyri-yaşayış binaları tikib sataraq külli miqdarda qazanc götürən, ancaq gördüyü işlərin bir çoxu keyfiyyətsiz çıxdığı üçün bazardakı mövqelərini itirən bu şirkət qazandığı tenderlərin icrasına cəlb etdiyi subpodratçılarla problemlər yaşayır, onlara gördükləri işlərin müqabilində ödəniş etməkdə çətinlik çəkir.

Bundan başqa, ölkə mediası "Akkord"un özündə də ciddi problemlər yaşandığına diqqət çəkir. Mətbuatın yazdığına görə, şirkət əməkdaşları bəzən uzun müddət əməkhaqqı ala bilmir.

Bir sözlə, sözügedən korporasiya üçün Zakir Qaralovun vəzifədən göndərilməsinin ciddi problemlər yaratdığı əksər media orqanları tərəfindən son vaxtlar davamlı şəkildə dilə gətirilir. Lakin "Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" ASC istər bu iddialar, istərsə də onun qeyri-rəsmi şəkildə sabiq Baş prokurora bağlılığı barədə deyilənlərə indiyədək münasibət bildirməyib. Korporasiya öz adı ətrafında qalmaqallı xəbərlərə bir qayda olaraq səssiz qalmaqla "cavab" verir ki, bu da cəmiyyətdə təəccüb doğurur.

Xatırladaq ki, hazırda 67 yaşı olan Zakir Qaralov 2020-ci ilin mayında Baş prokuror vəzifəsindən yola salınıb. O, 2000-ci ildən bu yana, yəni 20 il müddətində həmin postu tutmuşdu.

"Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası"na gəlincə, bu ASC 2005-ci ildə təsis edilib. Şirkətin rəsmi saytında bildirilir: "Fəxrlə deyə bilərik ki, Cənubi Qafqazda tikinti sektorunun lider şirkətlərindən olan Akkord Korporasiyası qısa müddət ərzində yaşayış binalarının tikintisi və satışı, həmçinin digər ictimai obyektlərin və infrastruktur layihələrinin tikintisi, inşaat materiallarının istehsalı və emalı sahəsində yüksək nailiyyətlər əldə etmişdir"...

Yeri gəlmişkən, korporasiyanın rəsmi saytından o da məlum olur ki, hazırda "Akkord"un davam edən 2 layihəsi var. Bunlardan biri Gəncə-Qazax-Gürcüstan sərhəddi yolunun 4 zolağa genişləndirilməsi layihəsinin Birinci Şıxlı kəndi ərazisindən keçən hissəsində icra olunur - layihə üzrə işlər yüksək təpəlik hissədə aparılır, ərazidə sürüşmə proseslərinin qarşısını almaq məqsədilə 30 metrə qədər olan yüksək yamaclara kompozit vurulur və daha sonra nazik torpaq qatı tökülür. Digər layihə isə Gəncə-Qazax-Gürcüstan sərhədi avtomobil yolunun dörd zolağa genişləndirilməsi çərçivəsində körpü və yolayırıcı bardür işlərinin aparılmasını əhatə edir.

***Toğrul Əliyev***

# Qarabağdakı qondarma rejim rəsmən süqut etdi: BU, MÜTLƏQ QƏLƏBƏDİR!



***Xəbər verildiyi kimi, Qarabağdakı qondarma rejim özünü buraxdığını elan edib. Bu barədə separatçıların "prezidenti" Samvel Şahramanyan "fərman" imzalayıb.***

O, bütün qondarma dövlət qurumlarını ləğv edərək əhalini Azərbaycanın reinteqrasiyası üçün şəraitlə tanış olmağa çağırıb: "Mövcud ağır hərbi-siyasi vəziyyətlə əlaqədar olaraq, Rusiya sülhməramlı qüvvələri komandanlığının vasitəçiliyi ilə əldə edilmiş razılaşmanı nəzərə alaraq, insanların fiziki təhlükəsizliyinin və həyati maraqlarının təmin edilməsi prioritetinə əsaslanaraq Azərbaycan Respublikasının nümayəndələri ilə razılaşdırılıb ki, Qarabağ sakinlərinin, o cümlədən silahı yerə qoymuş hərbi qulluqçuların əmlakı Laçın dəhlizi ilə sərbəst, könüllü və maneəsiz gediş-gəlişi Azərbaycan Respublikasının Qanununun 93-cü maddəsini rəhbər tutmaqla təmin edilir.

1. 2024-cü il yanvarın 1-dək idarə tabeliyində olan bütün dövlət qurumları və təşkilatları ləğv edilsin və Dağlıq Qarabağ Respublikası (Azərbaycanın Qarabağ iqtisadi rayonu - red.) öz fəaliyyətini dayandırsın.

2. Qarabağın əhalisi, o cümlədən respublikadan kənarda yerləşənlər bu Fərman qüvvəyə mindikdən sonra müstəqil və fərdi qərar qəbul etmək məqsədi ilə Azərbaycan Respublikasının təqdim etdiyi reinteqrasiya şərtləri ilə tanış olsunlar. Bu fərman dərc edildiyi gündən qüvvəyə minir".

Məsələylə bağlı fikirlərini "Unikal"la bölüşən politoloq Elxan Şahinoğlu deyib ki, Qarabağ separatçılarının özlərini buraxması, "qurumlarının" fəaliyyətlərini dayandırması Azərbaycan torpaqlarında 35 illik separatçı hərəkatın sonu deməkdir. Onun sözlərinə görə, Qarabağda separatçılığın tarixi daha uzundur, təxminən 200 il əvvəl bölgəyə köçürüldükdən sonra bizə hər zaman problem yaratdılar, qətliamlar törətdilər, müharibələr oldu, on minlərlə insan həlak oldu. Beləliklə 200 illik bəladan qurtulduq. Bu xalqımızın və dövlətimizin ən böyük naliyyətlərindən biri sayıla bilər. Bundan sonra quruculuq işlərini sürətləndirə bilərik: "Qarabağdan ermənilərin kütləvi köçü 2 ilin sonunu gözləmədən Rusiya hərbi kontingentinin bölgəni tərk etməsini sürətləndirəcək, qalmağın mənası yoxdur. Biz tək separatizm üzərində qələbə çalmadıq, erməni ideologiyasına, erməni lobbisinə və onlarla əlaqələri olan mərkəzlərə zərbə vurduq. Ermənilər arasında dərin fikir ayrılığı yaranıb. Əldə etdiyimiz uğura baxmayaraq, meşələrdə gizlənmək istəyən separatçılar ola bilər. Əgər beləlləri olarsa onları da məhv etməliyik. Qarabağda separatçı ocağın söndürülməsi Ermənistanla Azərbaycan arasında sülh sazişi imzalamaq imkanlarını artırır. Qarabağ Ermənistan üçün siyasi, iqtisadi və hərbi yük idi. Bu yükdən qurtuldular. Əgər baş nazir Nikol Paşinyanın məntiqi varsa ilin sonuna qədər Azərbaycanla sülh sazişi imzalayar. Doğrudur, bu halda erməni lobbisi və yerli radikallar ona mane olmağa çalışacaq. Ancaq Paşinyan hələ də cəmiyyətinin bir hissəsinin dəstəyinə malikdir. Bu dəstək onun devrilməsinin qarşısını alır. Bu Paşinyana imkan verir ki, Azərbaycan və Türkiyə ilə münasibətlərin normallaşdırılması siyasətinə üstünlük versin. 1987-ci ildən başlayaraq Qarabağda separatizm mövzusunda yazılar yazmağa başladım, bu gəncliyimdən mənim əsas mövzum oldu, müxtəlif ölkələrdə onlarla konfransda iştirak etdim, bu mövzuda 3 kitab yazdım. Ermənistanın keçmiş prezidentlərindən və siyasətçilərindən aldığım müsahibələr nəticəsində hələ 1990-cı illərin sonunda bu qənaətə gəldim ki, bunlarla danışığın perspektivi yoxdur, nəticə əldə etməyəcəyik, qarşılarında güc göstərmək lazımdır. Həmin günü görmək mənə qismət oldu. Allah şəhidlərimizə rəhmət eləsin! Sizin qəhrəmanlığınız və ali baş komandanın əmrləri sayəsində torpaqlarımıza qovuşduq, ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etdik".

Siyasi şərhçi Asif Nərimanlı hesab edir ki, Qarabağdakı separatçı rejim "rəsmi olaraq" özünü buraxdı və bununla da qələbəmiz tamamlandı. Onun sözlərinə görə, Azərbaycan polisinin Xankəndinə daxil olduğuna dair yayılan görüntülər var, qısa müddətdə şəhərdə bayrağımızın ucaldılacağı gözlənilir: "Azərbaycanın erməni əhalisinin yaşadığı ərazilərdə mərkəzi hakimiyyətin bərpası prosesində separatçı rejimin özünü buraxmağa məcbur edilməsinin perspektiv hədəfi də var.Bu proses başqa ssenari üzrə də cərəyan edə bilərdi: separatçıların özünü buraxan "rəhbərliyi" bölgədən qovula, yaxud qandallanıb Bakıya gətirilə bilərdi. Ki, bundan sonra onların qanun qarşısına çıxarılması, amnistiyaya düşüb-düşməyəcəkləri rəsmi Bakının siyasi iradəsindən asılı olacaq. Və yaxud Rusiya separatçıları özlərini buraxmamış bölgədən çıxara bilərdi. Bu halda Bakının Xankəndi hədəfi - suverenliyimizin tam bərpası, o ərazilərdə mərkəzi hakimiyyətin qurulması hədəfi dəyişməyəcəkdi və nail olunacaqdı. Lakin separatçı rejim özünü buraxmayacağı təqdirdə, ermənilər Ermənistanda qondarma "artsax"ın "mühacir hökuməti"ni yarada və ərazi iddialarını davam etdirə, beynəlxalq səviyyədə dəstək qazana bilərdilər. Bu məsələdə Ermənistan da maraqlıdır, Rusiya da, o cümlədən, bölgədə maraqları olan digər qüvvələr də. Şübhəsiz ki, rəsmi Bakı separatçı rejimin özünü buraxması tələbində israr edib və bu, həm də perspektivdə ərazi iddialarının qarşısını almağa hesablanmış addımdır. Ermənilərin eyni iddiaları davam etdirməyəcəyinə, qondarma "artsax" kimi iddialar irəli sürməyəcəyinə heç kim zəmanət verə bilməz, indi olmasa belə, 20 ildən sonra fürsət tapan kimi edə bilərlər. Separatçı rejimin özünü buraxması Azərbaycana bu iddiaların önünə fakt qoymaq imkanı verəcək: "öz müqəddəratını təyin etmək" istəyənlər özləri bundan imtina etdi, etdirildi".

Milli Məclisin deputatı Fazil Mustafa da hazırkı durumu Azərbaycanın mütləq qələbəsi kimi dəyərləndirib: "Tam və qəti kapitulyasiya! "Artsağ"ın və alçağın ölümü! Bu ölümün fərmanını özlərinin verməsi bizim diplomatiyamızın çörəyinə elə bir yağ sürtdü kig sonrası hamının dilinin kəsilməsi deməkdir. Bundan sonra həmin sənədin nüsxələrini əldə hazır tutmalıyıq. Kim ki, yazıq erməni deyibən, soyqırım deyibən çərənlədisə, məhz bu kağız parçasını ağzına basmaq lazımdır. Bu möhtəşəm tarixi anları bizə yaşadan Azərbaycan əsgəri, Azərbaycanın Ali Baş Komandanı, bu tarixi anları yaşayan Azərbaycan Vətəninin övladları İlahi xoşbəxtliyin hansı məqamında olduğunuzun fərqindəmisiniz?".

Politoloq Tofiq Abbasov Xankəndidəki qondarma qurumun rəsmi olaraq ləğv edilməsi haqda danışarkən deyib ki, Azərbaycan xalqı bu məsələdə çox dözümlü yanaşma sərgiləməklə, prosesləri elə bir tərzdə tərtib etdi ki, biz artıq mütləq qalibik. Onun sözlərinə görə, bu işdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin misilsiz xidməti var. Məhz onun diplomatiyası bizi qələbəyə çatdırdı. "Biz yalnız Ermənistanla yox, çox böyük qüvvələrlə müharibədə idik. Yəni fövqəldövlətlər - Fransa, ABŞ, Rusiyanın bəzi dairələri, bəzi Şərq ölkələri, həmçinin, qonşuluqda olan bəzi məmləkətlər onların arxasında idi. Lakin İlham Əliyevin çevik diplomatiyası məsələni elə bir tərzdə gündəmə gətirərək onlara təkan verdi ki, biz artıq 30 ildən çox davam edən iztirabın sonuna çatdıq. Münaqişəni tam həll etdik. Bu, mütləq qələbədir", - Abbasov bildirib.

***M.İbrahimli***



# Antiterror əməliyyatında şəhid olanların bank borcları silindi

***27 sentyabr 2023-ci il tarixində Azərbaycan Banklar Assosiasiyasının (ABA) Rəyasət Heyətinin geniş tərkibdə iclası keçirilib.***

ABA-dan "Unikal"a verilən məlumata görə, iclasda, lokal xarakterli antiterror tədbirləri çərçivəsində Qarabağda qanunsuz yerləşmiş terrorçuların zərərsizləşdirilməsi və Azərbaycanın suverenliyinin bərpası uğrunda şəhid olmuş və yaralanmış hərbiçilərimizlə əlaqədar aşağıdakı qərarlar qəbul olunub:

Şəhid olmuş hərbiçilərimizin banklarda olan bütün növ kredit öhdəlikləri, onlara hesablanmış faizlər və digər ödəmələr tam həcmdə silinsin;

Yaralanmış hərbiçilərimizin banklara olan kredit öhdəliklərinə 19 sentyabr 2023-cü il tarixindən 31 dekabr 2023-cü il tarixinə olan dövr ərzində hesablanan faizlər və digər ödəmələr bankların hesabına silinsin.

Azərbaycan bank icması hər zaman Azərbaycan Respublikasının Prezidentinin tapşırıqlarını rəhbər tutaraq şəhid ailələri və qazilərimizə, eləcə də vətənimizin düşməndən azad edilməsində iştirak edən hərbiçilərimizə münasibətdə həssaslıq nümayiş etdirməyə davam edəcəklər.

Qeyd edək ki, ABA 1990-cı ildə kommersiya bankları tərəfindən təsis edilib. ABA-nın əsas məqsədi üzv-təşkilatları təmsil etmək, onların müxtəlif növ işgüzar xidmətlərə olan ehtiyaclarının ödənilməsinə dəstək göstərmək və fəaliyyətləri əlaqələndirməkdən ibarətdir. Hazırda, 24 bank və 6 qeyri-bank təşkilatı ABA-nın üzvüdür.

# Banklar yaralı hərbçilərimizə güzəşt edəcək

***Antiterror tədbirlərində yaralanmış hərbçilərimizin banklara olan kreditlərinə güzəşt tətbiq ediləcək.***



"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Banklar Assosiasiyasının (ABA) Rəyasət Heyətinin geniş tərkibdə iclasında qərar verilib.

Bildirilib ki, antiterror tədbirlərində yaralanmış hərbiçilərimizin banklara olan kredit öhdəliklərinə 19 sentyabr 2023-cü il tarixindən 31 dekabr 2023-cü il tarixinə olan dövr ərzində hesablanan faizlər və digər ödəmələr bankların hesabına silinəcək.

# Əli Əsədov Düşənbəyə getdi



***Sentyabrın 28-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Tacikistan Respublikasının Baş naziri Koxira Rasulzodanın dəvəti ilə "Düşənbə-2023" Beynəlxalq İnvestisiya Forumunda iştirak etmək üçün Düşənbə şəhərinə işgüzar səfərə gəlib.***

Nazirlər Kabinetinin mətbuat xidmətindən "Unikal"a bildiriblər ki, səfər çərçivəsində Əli Əsədovun bir sıra ikitərəfli görüşləri planlaşdırılır.

# Ramin Məmmədovun erməni sakinlərlə növbəti görüşü gözlənilir

***Ramin Məmmədovun Yevlaxda Qarabağın erməni sakinlərinin nümayəndələri ilə növbəti görüşü gözlənilir.***

"Unikal" xəbər verir ki, Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərlə təmaslar üzrə məsul şəxs, deputat Ramin Məmmədovun yaxın vaxtlarda Yevlaxda Qarabağın erməni sakinlərin nümayəndələri ilə növbəti görüşü planlaşdırılır.

Qeyd edək ki, Ramin Məmmədov Yevlaxda və Xocalıda erməni sakinlərin nümayəndələri ilə artıq bir neçə görüş keçirib. Danışıqlarda Qarabağda yaşayan erməni sakinlərin reinteqrasiyası məsələləri müzakirə olunub.

# Azərbaycan Xankəndinə 30 avtobus göndərdi

***Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin nümayəndələri tərəfindən Xankəndidən mülki şəxslərin Ermənistana daşınması üçün müvafiq nəqliyyat vasitələrinin ayrılmasına dair müraciət daxil olub.***

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən "Unikal"a bildirilib ki, həmin nəqliyyat vasitələri ilə Xankəndi şəhərində və ora yaxın ərazilərdə yaşayan, şəxsi avtomobilləri olmayan mülki şəxslərin daşınması nəzərdə tutulur. Müraciətə müsbət baxılaraq, sentyabrın 28-də 30 iritutumlu avtobus Ağdam-Əsgəran-Xankəndi yolu vasitəsilə yola salınıb.

# Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinə yeni səlahiyyət verilib

***Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası "Avtomobil nəqliyyatının infrastruktur obyektlərinin, o cümlədən avtovağzalların (avtostansiyaların), dayanacaq məntəqələrinin, avtomobil duracaqlarının, terminalların və digər qurğuların, habelə avtonəqliyyat vasitələrinə texniki xidmət göstərən texniki-təmir stansiyalarının (sahələrinin), yanacaq doldurma məntəqələrinin yerləşdirilməsinə, yaxud təyinatı avtomobil nəqliyyatının digər infrastruktur obyektinə dəyişdirilməklə yenidən qurulmasına rəyin verilməsi Qaydası"nda dəyişiklik edib.***

"Unikal" xəbər verir ki, bununla bağlı nazir Rəşad Nəbiyev yeni qərar imzalayıb. Qərara əsasən, sözügedən rəyi Şuşa şəhərinin ərazisində Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi, digər ərazilərdə isə əvvəlki qaydada Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi verəcək. Nazirliyin Hüquq şöbəsinə tapşı-

# DTX Vardanyanla bağlı ibtidai istintaqa başladı

## Məhkəmə tərəfindən onun barəsində 4 aylıq həbs qətimkan tədbiri seçilib

***Məlum olduğu kimi, Azərbaycan Respublikasının Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərində fəaliyyət göstərmiş qanunsuz erməni silahlı birləşmələri tərəfindən ötən müddət ərzində törədilmiş çoxsaylı terrorçuluq cinayətlərinin araşdırılması ilə bağlı Dövlət Təhlükəsizliyi Xidmətində ibtidai istintaq aparılır.***

"Unikal" xəbər verir ki, bu barədə Dövlət Təhlükəsizliyi Xidməti məlumat yayıb. Toplanılmış sübutlarla, hazırda Ermənistan Respublikasının vətəndaşı olan 1968-ci il təvəllüdlü Vardanyan Ruben Karlenoviçin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214-1 (terrorçuluğu maliyyələşdirmə), 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların yaradılmasında və fəaliyyətində iştirak etmə) və 318.1-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə nəzərdə tutulan cinayət əməllərini törətməsinə əsaslı şübhələr müəyyən edilmişdir. Ona qarşı irəli sürülən ittihama əsasən, müəyyənləşdirilmişdir ki, Ruben




Vardanyan xarici ölkə vətəndaşı olduğu halda terror-təxribat əməlləri törətmək məqsədilə 2022-ci ilin sentyabr ayında Azərbaycan Respublikasının dövlət sərhədini nəzarət-buraxılış məntəqələrindən kənar, qanunsuz keçərək, Azərbaycan Respublikasının Qarabağ iqtisadi rayonunda Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi əraziyə daxil olmuş, həmin ərazidə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələrin formalaşdırılması və fəaliyyətinin təşkilində, habelə idarələrə, təşkilatlara və ayrı-ayrı şəxslərə insanların həlak olmasına və digər ağır nəticələrə səbəb olan basqınlar etmiş sözügedən qanunsuz hərbi birliklərin silah, döyüş sursatı, partlayıcı maddələr, hərbi texnika və əsgəri ləvazimatla təchiz edilməsində iştirak etmişdir. Bundan başqa o, pul vəsaitlərini həmin qanunsuz silahlı birləşmələrin terrorçuluq fəaliyyətinin təşkil olunmasına yönəltməklə terrorçuluğu maliyyələşdirmişdir. Törətdiyi qeyri-qanuni əməllərə görə Ruben Vardanyan 27 sentyabr 2023-cü il tarixində saxlanılaraq, ittiham elan edilməklə təqsirləndirilən şəxs qismində cinayət məsuliyyətinə cəlb olunmuş, barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilmişdir. Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Səbail rayon Məhkəməsində qondarma Dağlıq Qarabağ Respublikasının "dövlət naziri" vəzifəsində çalışmış Ermənistan vətəndaşı Ruben Vardanyan barəsində Dövlət Təhlükəsizliyi Xidmətinin İstintaq İdarəsinin təqdimatına baxılıb.

Hakim Ülviyyə Şükürovanın sədrliyi ilə keçirilən prosesdə təqdimat təmin edilib. Məhkəmə tərəfindən Ruben Vardayan barəsində 4 aylıq həbs qətimkan tədbiri seçilib.

***İnformasiya şöbəsi***

# "Ermənistanın mehriban qonşu olmaqdan başqa yolu yoxdur" - Prezidentin nümayəndəsi

***"Azərbaycan Qarabağın erməni sakinlərinin öz ana dilindən, mədəniyyətindən və dinindən istifadə etməklə bağlı hüquq və imkanlarını heç bir şəkildə məhdudlaşdırmaq niyyətində deyil".***

"Unikal" xəbər verir ki, bunu Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov BBC-yə müsahibəsində deyib.

"Bizim üçün heç vaxt keçilməsinə icazə verməyəcəyimiz yeganə qırmızı xətt suverenliyimizi və ərazi bütövlüyümüzü şübhə altına ala biləcək məsələlərdir", - o vurğulayıb.

Onun sözlərinə görə, Azərbaycan və Ermənistanın mehriban qonşu olmaqdan başqa yolu yoxdur: "Əgər bizim bir-birimizlə düşmənçilik üçün heç bir əsasımız yoxdursa, Azərbaycan və Ermənistan liderləri ən yüksək siyasi səviyyədə ərazi bütövlüyünün tanındığını bəyan ediblərsə, demək, bizim sadəcə olaraq mehriban qonşular olmaqdan başqa yolumuz yoxdur".

Prezidentin xüsusi tapşırıqlar üzrə nümayəndəsi qeyd edib ki, Azərbaycan hərbçiləri son ildırımsürətli antiterror tədbirləri zamanı mülki əhali arasında itkilə-



rin qarşısını almaq üçün mümkün olan hər şeyi etməyə çalışıblar: "Antitteror tədbirləri bir gündən az davam edib və cərrah dəqiqliyi ilə həyata keçirilib. Bütün bunlar hərbi hədəfləri zərərsizləşdirməyə yönəlmiş yüksək dəqiqliklə həyata keçirilmiş addımlar idi".


Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5^N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000


# Qarabağdakı erməni sakinlərin qeydiyyatı aparılacaq - Portal yaradıldı

***Azərbaycan Respublikasının Qarabağ bölgəsində yaşayan erməni sakinlərin Azərbaycan cəmiyyətinə dayanıqlı reinteqrasiyasının təmin edilməsi və Azərbaycan dövlətinin himayəsindən istifadə etmələrinə imkan yaradılması məqsədilə Qarabağ bölgəsində sosial, humanitar, iqtisadi və infrastruktur məsələlərinin həlli üzrə İşçi qrupa həmin şəxslərin hüquqi statusunun müəyyən olunması ilə bağlı müvafiq tapşırıqlar verilib.***

"Unikal" xəbər verir ki, bu ba-



rədə Azərbaycan Respublikası Prezidentinin Administrasiyası məlumat yayıb.

Bildirilib ki, bu fəaliyyət çərçivəsində ilkin mərhələdə Qarabağ bölgəsində yaşayan erməni sakinlərin qeydiyyatının aparılması nəzərdə tutulur. Müraciətlərin qəbulu və qeydiyyata alınma prosesi Dövlət Miqrasiya Xidməti tərəfindən bu məqsədlə yaradılmış xüsusi portal vasitəsilə müraciət edən şəxslərin maksimum rahatlığı və informasiya əlçatanlığını təmin edəcək şəkildə elektron qaydada həyata keçiriləcəkdir.

İlkin qeydiyyata alınma Qarabağ bölgəsində yaşayan erməni sakinlərin bütün dövlət xidmətlərindən səmərəli şəkildə yararlanmasına, həmçinin sosial-iqtisadi və humanitar ehtiyaclarının qarşılanmasına imkan yaradacaqdır.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası nəzərə çatdırır ki, Qarabağ bölgəsində yaşayan erməni sakinlər ilkin qeydiyyata alınmaq üçün könüllü şəkildə reintegration.gov.az portalına və ya aşağıdakı əlaqə vasitələri ilə müraciət edə bilərlər:

Telefon nömrəsi: +994 12 526 09 19

WhatsApp nömrəsi: +994 70 527 09 19

Elektron poçt ünvanı: info@reintegration.gov.az

Əlavə olaraq, yaxın zamanda müraciətlərin yerlərdə qəbulu təşkil ediləcəkdir.

# Prezident İlham Əliyev Cəbrayıl və Zəngilanda açılışlar etdi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Cəbrayıl rayonuna səfər edib.**

”Unikal” xəbər verir ki, dövlət başçısı Cəbrayıl şəhərində inzibati binanın təməlini qoyub. Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlətimizin başçısına görüləcək işlər barədə məlumat verdi. Bildirildi ki, Baş plana əsasən, inzibati bina işgüzar zona kimi müəyyən olunmuş bir hektar ərazidə tikiləcək. Layihəyə əsasən, ərazidə dörd bina inşa ediləcək. Hər bina müasir üslubda layihələndirilib. İlkin mərhələdə 4-5 mərtəbədən ibarət ikikorpuslu bina kompleksinin tikintisi planlaşdırılır və binalar körpü vasitəsilə əlaqələndiriləcək. Digər 3-4 mərtəbəli binaların tikintisi isə ikinci mərhələ üçün nəzərdə tutulur. Binaların fasadında müasirlik və milliliyin ahəngi əsas götürülüb. Belə ki, eyvanlarda milli elementimiz olan şəbəkədən istifadə olunacaq. Layihəyə əsasən, inzibati bina kompleksinin həyətində sakinlərin istirahəti üçün park salınacaq. Buradakı avtomobil dayanacağı elektrik doldurma məntəqələri ilə təmin olunacaq.

Kompleksin elektrik enerjisi təminatını qismən ödəmək məqsədilə binaların damında və istifadə olunmayan boş ərazilərində günəş panelləri quraşdırılacaq. Prezident İlham Əliyev inzibati binanın təməlini qoydu.

Prezident İlham Əliyev Cəbrayıl şəhərində Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən inşa edilən ilk yaşayış məhəlləsi - Cəbrayıl Yaşayış Kompleksində aparılan tikinti işləri ilə tanış olub. Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri Sadiq Sadıqov dövlətimizin başçısına tikinti işlərinin gedişi barədə məlumat verdi. Qeyd olundu ki, ümumi sahəsi 7,9 hektar olan yaşayış kompleksi 33 binadan ibarətdir. Dördmərtəbəli və beşmərtəbəli binalarda ümumilikdə 718 mənzil olacaq. Onların 8-nin birotaqlı, 136-sının ikiotaqlı, 8-nin ikiotaqlı studio tipli, 392-nin üçotaqlı, 168-nin isə dördotaqlı olması nəzərdə tutulur. Birotaqlı mənzillərin sahəsi 40-50 kvadratmetr, ikiotaqlı mənzillərin sahəsi 55-90 kvadratmetr, ikiotaqlı studio tipli mənzillərin sahəsi 98-100 kvadratmetr, üçotaqlı mənzillərin sahəsi 90-108 kvadratmetr, dördotaqlı mənzillərin sahəsi isə 110-120 kvadratmetr təşkil edəcək. Altı kvartaldan ibarət kompleksin inşası sürətlə və keyfiyyətlə həyata keçirilir. Bütün mənzillər tam təmirli olacaq, mətbəx mebeli və qaz plitəsi, su, qaz və elektrik sayğacları ilə təchiz ediləcək. Binalar liftlə və mərkəzləşdirilmiş qazanxana vasitəsilə istiliklə təmin olunacaq. Yaşayış binaları ilə yanaşı, ərazidə park, sosial-məişət obyektləri, yeraltı və yerüstü avtodayanacaqlar, istirahət guşələri, uşaq oyun və idman meydançaları da istifadəyə veriləcək.

Prezident İlham Əliyev sentyabrın 28-də “Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin Cəbrayıl Rəqəmsal İdarəetmə Mərkəzinin açılışını edib. “Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin sədri Vüqar Əhmədov dövlət başçısına görülən işlər barədə məlumat verib. Qeyd edək ki, ölkəmizin elektroenergetika sektorunda texnoloji innovasiyaların tətbiqi və infrastrukturun rəqəmsal transformasiyasının sürətləndirilməsi istiqamətində Cəbrayıl şəhərində Prezidenti İlham Əliyev tərəfindən 2022-ci il oktyabrın 19-da təməli qoyulan “Azərişıq” ASC-nin Rəqəmsal İdarəetmə Mərkəzi yüksək səviyyədə inşa olunub.




Prezident İlham Əliyev “Azərişıq” ASC-nin Cəbrayıl Rəqəmsal İdarəetmə Mərkəzini işə salıb. Məlumat verilib ki, 35/0,4 kilovoltluq “Cəbrayıl şəhər” yarımstansiyası qovşaq yarımstansiyası olmaqla 110/35/10 kilovoltluq “Cəbrayıl” yarımstansiyası, Zəngilan, Qubadlı rayonları və Hadrut qəsəbəsi ilə əlaqələndirilməklə 35 kV-luq dairəvi elektrik təchizat sxeminə daxil olacaq.



Cəbrayıl Rəqəmsal İdarəetmə Mərkəzinin dispetçer idarəetmə sistemi həm mərkəzləşdirilmiş, həm də müstəqil funksional rejimlərdə istismar imkanına malikdir. Binanın dam örtüyündə yaradılan “yaşıl enerji” mənbəyinin şəbəkəyə inteqrasiyası həyata keçirilib.

Prezidenti İlham Əliyev sentyabrın 28-də Zəngilan rayonunda olub. Dövlət başçısı Alıbəyli kəndinin təməlini qoyub. Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlətimizin başçısına Alıbəyli kəndi barədə məlumat verdi.

Alıbəyli kəndi Həkəri çayının sahilində, Bərgüşad silsiləsinin ətəyində, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd yolunun üzərində yerləşir. İşğaldan azad olunmuş ərazilərin ümumi planına əsasən, Alıbəyli kəndi Birinci Alıbəyli, İkinci Alıbəyli, Sarıl və Xumarlı kəndləri ilə birlikdə layihələndirilir. Kəndin mövcud məskunlaşma ərazisi 103,5 hektar sahəni əhatə edir. Layihələndirilən ərazinin sahəsi isə 170,3 hektardır. Bildirildi ki, Alıbəyli kəndində 2568 sakin üçün 498 fərdi evdən və 144 mənzildən ibarət 2-3 mərtəbəli bloklaşdırılmış evlərin layihələndirilməsi nəzərdə tutulur. Birinci mərhələdə 772 sakin üçün 197 fərdi evin layihələndirilməsi və tikilməsi planlaşdırılır.

Kənddə inzibati bina, klub icma mərkəzi və qonaq evi, idman sağlamlıq mərkəzi, məktəb binası, bazar kompleksi, mərasim zalı, iaşə obyektləri və digər müəssisələr olacaq. Qeyd olundu ki, Alıbəyli kəndində əhali üçün tələbata uyğun ümumilikdə 462 şagird yerlik iki tam orta məktəb binasının tikintisi planlaşdırılır. Birinci mərhələdə 143 şagird yerlik məktəb binası inşa olunacaq. Üçmərtəbəli məktəbin ərazisində həm şagirdlər, həm də əhali üçün qaçış zolağı olan geniş idman meydançasının yaradılması nəzərdə tutulur. Kənddə məskunlaşacaq əhali üçün ümumilikdə 160 yerlik iki uşaq bağçası da inşa olunacaq. Əhalinin resurslardan istifadəsini əlçatan etmək məqsədilə geniş istifadə olunan qeyri-yaşayış obyektləri bir neçə mövqedə yerləşdirilib.

Sonra Alıbəyli kəndinin inkişaf planı barədə videoçarx nümayiş etdirildi. Prezident İlham Əliyev Alıbəyli kəndinin təməlini qoydu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Zəngilan rayonunda Zəngilan kəndinin təməlini qoyub. Dövlətimizin başçısına kənddə görüləcək işlər barədə məlumat verildi. Bildirildi ki, Zəngilan kənd inzibati ərazisinə daxil olan bu kənd şəhər mərkəzindən 3,1 kilometr məsafədə, Oxçuçayın sahilində, Zəngilan-Mincivan yolunun üzərində düzənlik ərazidə yerləşir. Baş plana əsasən, Zəngilan kəndi İçəri Müşlan və Məlikli kəndləri ilə birlikdə layihələndirilib. Kəndin layihələndirilən ümumi ərazisi 111,3 hektardır. Zəngilan kəndində 1631 sakin üçün 306 fərdi evin və 102 mənzildən ibarət 2-3 mərtəbəli bloklaşdırılmış evlərin tikilməsi nəzərdə tutulur. Birinci mərhələdə Zəngilan kəndinə 489 sakinin köçürülməsi üçün 127 fərdi ev tikiləcək.

Kənddə məktəb binası, uşaq bağçası, inzibati bina, klub icma mərkəzi və çoxfunksiyalı bina, bazar kompleksi, idman sağlamlıq mərkəzi, tibb məntəqəsi, mərasim zalı və qonaq evinin tikintisi planlaşdırılıb. Burada əhalinin məşğulluğu üçün hər cür şərait yaradılacaq. Bu kənddə də əhalinin resurslardan istifadəsini əlçatan etmək məqsədilə geniş istifadə olunan qeyri-yaşayış obyektləri bir neçə mövqedə yerləşdiriləcək. Zəngilan kəndində 294 şagird yerlik tam orta məktəb, 60 və 40 yerlik iki uşaq bağçası da inşa olunacaq.

Prezident İlham Əliyev sentyabrın 28-də Zəngilan Konqres Mərkəzi Kompleksinin açılışını edib. Dövlət başçısına görülən işlərlə bağlı məlumat verildi. Bildirildi ki, ərazisi 2,2 hektar olan Zəngilan Konqres Mərkəzi Kompleksi iki hissədən ibarətdir. Kompleksə daxil olan 600 yerlik korpusda ölkə və beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi üçün müasir standartlara uyğun şərait yaradılıb. Digər korpusda isə kiçik həcmli müxtəlif çoxfunksiyalı tədbirlərin keçirilməsi üçün zal, mətbəx və VIP otaqlar mövcuddur. Məlumat verildi ki, Zəngilan Konqres Mərkəzi Kompleksi yerli və xarici mütəxəssislər cəlb olunmaqla altı ay ərzində inşa edilib. Kompleksin tikintisinin qısa müddətdə başa çatdırılması üçün üçnövbəli iş qrafiki tətbiq olunub. Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin əməkdaşlarının da fəal iştirakı ilə tikinti işləri yüksək keyfiyyətdə və standartlara uyğun şəkildə aparılıb. Kompleksin ərazisində yaşıllıq zonaları, yerüstü parklanma sahəsi mövcuddur. Mərkəzin binasının dam hissəsində günəş panelləri yerləşdirilib. Gələcəkdə bu mərkəzdə ölkə və beynəlxalq əhəmiyyətli müxtəlif tədbirlərin keçirilməsi mümkün olacaq.

Prezident İlham Əliyev sentyabrın 28-də Zəngilan şəhərində 4-cü yaşayış kompleksinin təməlini qoyub. Dövlətimizin başçısına kompleks barədə məlumat verildi. Bildirildi ki, kompleksin inşa olunacağı ərazi şəhərin ortasıxlıqlı çoxfunksiyalı zonasında, inzibati mərkəzin yaxınlığında yerləşir. Bu yaşayış kompleksinin ərazisi iki hektardır. Şəhərin təsdiq edilmiş Baş planına uyğun olaraq, kompleksdə 3, 4 və 5 mərtəbəli çoxmənzilli binaların inşası nəzərdə tutulur. Konsepsiyaya əsasən, buradakı yaşayış binalarının 131 mənzildən ibarət olması planlaşdırılır. Prezident İlham Əliyev 4-cü yaşayış kompleksinin təməlini qoydu.



# Azərbaycan XİN Paşinyana cavab verdi

***Ermənistanın Baş naziri Nikol Paşinyanın Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin guya "etnik təmizləmə"yə məruz qaldığı barədə 28 sentyabr 2023-cü il tarixli bəyanatını qətiyyətlə pisləyir və rədd edirik.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin açıqlamasında bildirilib.

"Bu cür həyəcan təbili çalan rəvayət, Ermənistan Baş nazirinin Azərbaycan tərəfindən erməni sakinlərə qarşı heç bir təhlükənin olmadığını söylədiyi 21 sentyabr tarixli bəyanatı ilə ziddiyyət təşkil etməklə yanaşı, o cümlədən Azərbaycanın humanitar dəstək və reinteqrasiya istiqamətində göstərdiyi səyləri pozmağa və Azərbaycan ilə Ermənistan arasında sülhün mümkün perspektivlərini sarsıtmağa hədəflənib.

Ermənistan rəhbərliyi, Azərbaycanın mərkəzi hökumət institutlarının operativ şəkildə Qarabağ bölgəsində yaşayan erməni sakinlər üçün zəruri humanitar dəstək tədbirlərinin həyata keçirilməsinə və təcili ehtiyaclarının ödənilməsinə başladığını nəzərdən qaçırır.

Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin gedişinin onların şəxsi və fərdi qərarı olduğu, bunun məcburi yerdəyişmə ilə heç bir əlaqəsi olmadığı Baş nazir Paşinyana yaxşı məlumdur. Əgər erməni sakinlərinin hansısa seqmenti Azərbaycan qanunvericiliyi və hakimiyyəti çərçivəsində yaşamaq və ona tabe olmaq istəmirsə, onları buna məcbur edə bilmərik. Bunun əksinə, biz erməni sakinləri öz yaşayış yerlərini tərk etməməyə və multietnik Azərbaycan cəmiyyətinin bir hissəsi olmağa çağırırıq.

Ermənistan, regionda sülhün və təhlükəsizliyin bərqərar olması üçün erməni sakinlərin reinteqrasiya prosesinə maneələri aradan qaldırmalı və hər iki ölkənin ərazi bütövlüyü və suverenliyinə əsaslanan sülh müqaviləsi üzrə danışıqlar prosesinin uğurla başa çatmasına fokuslanmalıdır", - açıqlamada qeyd olunub.

# Millət vəkili Qənirə Paşayeva vəfat etdi

***Millət vəkili Qənirə Paşayeva vəfat edib.***

"Unikal" xəbər verir ki, millət vəkili səhhətində yaranmış ciddi problemlərlə əlaqədar sentyabrın 23-dən Mərkəzi Klinik Xəstəxananın reanimasiya şöbəsinə yerləşdirilib.



Naməlum mənşəli hipotonik vəziyyət diaqnozu qoyulan Qənirə Paşayevanın səhhətindəki kritik durumla əlaqədar Mərkəzi Klinik Xəstəxananın həkim personalı və Türkiyədən cəlb edilmiş həkim mütəxəssislər tərəfindən görülmüş bütün zəruri tədbirlərə baxmayaraq millət vəkilinin həyatını xilas etmək mümkün olmayıb.

# "Azərbaycan yeni mərhələnin açarı və baş rolun ifaçısıdır"

## İqbal Ağazadə: "Cənubi Qafqazda yeni quruculuq mərhələsi bütün xalqların dinc, yanaşı, qonşu yaşamasını təmin edəcək"



***Ümid Partiyasının sədri İqbal Ağazadə "Unikal"a müsahibə verib. O, Azərbaycanın lokal xarakterli antiterror əməliyyatında qazandığı uğurlardan, Ruben Vardanyanın həbsindən sonra növbənin hansı separatçılarda olacağından, Ermənistanın Azərbaycanla nə vaxt sülh müqaviləsi imzalayacağından və Qarabağda yaşayan erməni əsilli Azərbaycan vətəndaşlarının həmin ərazilərdən getməsinin səbəblərindən danışıb.***

***-İqbal bəy, sentyabrın 19-da Azərbaycan Silahlı Qüvvələri tərəfindən Qarabağ iqtisadi rayonunda keçirilən lokal xarakterli antiterror tədbirləri uğurla yekunlaşdı. Belə ki, bir sutka ərzində separatçılar təslim oldular. Antiterror əməliyyatında qazanılan uğurları necə qiymətləndirirsiz?***

-1987-ci ilin sonlarından bu günə kimi Azərbaycan ərazisində baş qaldıran separatizmin məhv olunması istiqamətində çox böyük itkilər vermişik. Birinci Qarabağ müharibəsində böyük insan və torpaq itkilərimiz olub. İkinci Qarabağ müharibəsində dövlət sərhədimizi bərpa etmişik. Azərbaycan müstəqillik qazandıqdan sonra ilk dəfə dövlət sərhədinə tam şəkildə nəzarət edib. Bu isə məntiqi sonluq idi. Bunu 2020-ci ilin 10 noyabrında imzalanan Üçtərəfli Bəyanatdan sonra görməyə ehtiyac var idi. Azərbaycan siyasi düşüncə və fikri bu istiqamətə yönləndirmişdi. Onun məntiqi nəticəsi kimi bu hadisələr baş verməli idi. Qürurla və fəxrlə qeyd etmək mümkündür ki, Azərbaycan öz ərazisində separatizmin kökünü kəsdi, potsovet ölkələri içərisində ərazisində olan konflikti sona çatdıran ilk dövlət oldu. Moldova, Gürcüstan və Ukrayna kimi ölkələr hələki bu cür bəlalardan qurtula bilməyib. Amma Azərbaycan ağır itkilər hesabına olsa da, bunların öhdəsindən gəldi. Bu münasibətlə Azərbaycan xalqını və Ali Baş Komandan İlham Əliyevi təbrik edirəm. Azərbaycanın son 200 illik tarixində torpaq alan, ərazisini bütövləşdirən, böyük sərkərdəlik edən kimsə olmayıb. Ümid hakimiyyəti qurularsa, müzəffər sərkərdə kimi Azərbaycanın ən uca yerlərinin birində İlham Əliyevin heykəli ucaldılacaq və Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biri kimi gələcək nəsillərin bilməsi üçün böyük təşviqat işi aparılacaq.

***-Sentyabrın 27-də Ruben Vardanyan saxlanılıb və Bakıya gətirilib. Ötən gün isə Vardanyan Azərbaycan Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən həbs edilib və ona qarşı Cinayət Məcəlləsinin üç maddəsi ilə ittiham irəli sürülüb. Vardanyanın həbsindən sonra növbə hansı separatçıların olacağı gözlənilir?***

-Artıq Azərbaycanın Qarabağ bölgəsindəki qanunsuz rejim özünü buraxdığını elan edib. Bundan sonra Azərbaycan tərəfi kütləvi qırğınlarda iştirak edən və qeyri-qanuni strukturlar vasitəsilə Azərbaycanı təhdid edənlər barədə fərdi qərarlar verəcək. Yəqin ki, zamanı çatanda amnistiya da edəcək. Bundan sonra isə Cənubi Qafqazda quruculuq dövrü başlayır. Azərbaycan yeni mərhələnin açarıdır və baş rolunun ifaçısıdır. Cənubi Qafqazda yeni quruculuq mərhələsi bütün xalqların dinc, yanaşı, qonşu yaşamasını təmin edəcək. Azərbaycan təhlükəsizlik şəraitində yaşamağa töhfə verən ölkə kimi də tarixə düşəcək. Kimlərinsə həbs olunması və ya olunacağı xırda məsələlərdir. Azərbaycan xüsusi xidmət orqanları, güc strukturları xalqımıza qarşı kütləvi qırğın törətmiş və Azərbaycan-erməni xalqları arasında uzun illər düşmənçiliyi yayan şəxsləri qanun qarşısına çıxaracaq. Bundan sonrakı zaman quruculuqla bağlıdır. Ona görə də hər kəs quruculuq dönəminə töhfə verməlidir. Azərbaycan bu istiqamətdə bütün məsuliyyəti və gücü öz üzərinə götürməlidir.

***-Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirib ki, Ermənistan Zəngəzur yolunun açılmasına razılıq verməsə, yol İran üzərindən keçəcək. Oktyabrın 5-də isə İspaniyanın Qranada şəhərində Ermənistanın baş naziri Nikol Paşinyanla Azərbaycan Prezidenti İlham Əliyev arasında görüş planlaşdırılır. Bu görüşdə sülh müqaviləsinin imzalanması və Zəngəzur dəhlizinin açılması ilə bağlı hansı nəticələr əldə oluna bilər?***

-Hesab edirəm ki, 5 oktyabrda İspaniyanın Qranada şəhərində Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən görüşdən sonra sülh müqaviləsinin imzalanması sürətlənəcək və tərəflər üzərinə götürdükləri öhdəlikləri yerinə yetirməklə yanaşı həm də bölgənin gələcək taleyi barədə ciddi qərarlar verəcək. Bölgənin gələcək taleyində isə kommunikasiyaların açılması, çoxşaxəli iqtisadi münasibətlər sisteminin qurulması və dinc, yanaşı yaşamanın prinsipləri müəyyənləşəcək. Onun içərisində Zəngəzur dəhlizinin, Türkiyə-Ermənistan sərhədinin açılması və çoxşaxəli iqtisadi münasibətlər sisteminin yaradılması var. Ermənistan və Azərbaycan münasibətlər sistemində yeni mərhələyə qədəm qoydu. Münasibətlər sisteminin yeni mərhələsi tərəfləri bütün kommunikasiyaların açılmasına və yanaşı yaşamanın prinsiplərini düzgün müəyyən etməyə imkan verəcək. Ermənistan dövləti bu məsuliyyəti hiss edərək belə bir addım atacaq və bu dəhlizin İrandan keçərək açılmasına ehtiyac olmayacaq.

***-Hazırda Qarabağda qalmaq istəməyən ermənisilli sakinlər tam təhlükəsiz şəkildə Ermənistana gedirlər. Onlara Azərbaycan qanunları ilə bu ərazilərdə yaşamaq haqlarının olması deyilsə də, getməyi seçirlər...***

-Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisində yaşayan ermənisilli Azərbaycan vətəndaşlarının hamısı təəssüf ki, bu və ya digər şəkildə Azərbaycanla düşmənçilik münasibətlərində iştirakçı olublar. Hər kəs öz günahlarını bilməmiş deyil. Ona görə də Azərbaycan vətəndaşlığı çərçivəsində yaşamanın çətin olacağını anlayırlar. Buna görə də onlar Azərbaycan ərazisini tərk edirlər. Amma Azərbaycan hökuməti, cəmiyyəti, güc strukturları lazım olan müsbət mesajların hamısını ermənisilli Azərbaycan vətəndaşlarına verirlər. Amma bunun psixoloji tərəfləri var və bu, onlar ağır gəlir. Bu psixoloji tərəflərin içərisində hər kəsin zaman-zaman Azərbaycana qarşı fəaliyyəti dayanır. Belə ki, onlar müxtəlif vaxtlarda Azərbaycana qarşı çirkin fəaliyyət göstəriblər. Elə sərhəddə telekanallara müsahibə zamanı "Biz azərbaycanlıları sevirik" deyən nə qədər erməninin cəmi bir neçə müddət əvvəl Azərbaycan əleyhinə etdiyi çıxışların şahidi olduq. Sosial şəbəkələrdə bu barədə paylaşımlar var. Ona görə də insanlar bugünkü şərtlər çərçivəsində, münasibətlərin bu qədər gərginləşdiyi vaxtda birgəyaşayışın mümkünsüzlüyünü dərk edirlər. Hesab edirəm ki, konflikti birdəfəlik həll etmək və Cənubi Qafqazda sülhə nail olmaq üçün tərəflər mümkün qədər bir-birindən uzaq durmalıdırlar. Bu uzaqda dayanma nəticə etibarilə gələcək nəsillərin münasibətində dövlətlər daxilində deyil, yaxın qonşuluq çərçivəsində birgəyaşayışın konturlarını müəyyən etməyə kömək edəcək.

***Anar Kəlbiyev***

# Əbülfəs Qarayevin tenderlərini xatırladan ilginc satınalma

## Geyim satan şirkət 293 minlik təmir işlərini necə görəcək?

***Ötən həftə yerli mediada maraqlı bir xəbər yayıldı. Xəbərdə deyilirdi ki, Mədəniyyət Nazirliyinin nəzdində fəaliyyət göstərən "Əsaslı Tikinti və Təchizat" Məhdud Məsuliyyətli Cəmiyyəti (MMC) nazirliyin tabeliyində olan Sumqayıt şəhəri Heydər Əliyev Mərkəzində aparılacaq cari təmir işlərinin satın alınması üzrə elan etdiyi tenderə yekun vurub.***

Tenderin qalibi "Koneks Construction" MMC olub. Tərəflər arasında bağlanacaq satınalma müqaviləsinin maliyyə dəyəri 293.260,51 AZN-dir. Valyuta.az-ın məlumatına görə, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin reyestr məlumatlarına əsasən, "Koneks Construction" MMC 27 noyabr 2019-cu ildə qeydiyyata alınıb. Şirkətin nizamnamə kapitalı 10 AZN-dir. Hüquqi ünvanı Binəqədi rayonu, Səttar Bəhlulzadə küçəsi, ev 39, mənzil 29-da yerləşən MMC-nin qanuni təmsilçisi Fərzəliyev Mehdi Məhəmmədəli oğludur.

MMC müxtəlif dövrlərdə öz qanuni təmsilçisini bir neçə dəfə dəyişib. İlk qanuni təmsilçisi Xurşudov Samir Azad oğlu olsa da, daha sonra təmsilçilik Osmanlı Vahid Cuma oğlu və Fərzəliyev Mehdi Məhəmmədəli oğluna keçib. Açıq mənbələrdə Mehdi Fərzəliyev barəsində hər hansı məlumat yoxdur.

"Şirkət bu il dövlət qurumlarının elan etdiyi ümumi dəyəri 10 milyon manatdan çox olan 12 tenderin qalibi olub. Araşdırmamız zamanı məlum olub ki, yumşaq invertar və xüsusi geyimlər satan şirkət həm də təmir-tikinti işləri də aparırmış" - valyuta.az yazıb. O da qeyd edilib ki, bir müddət öncə mediada gedən məlumatlara görə, şirkətin 904 AZN vergi borcu olmasına baxmayaraq, bir neçə tenderin qalibi olub. "Dövlət Satınalmaları haqqında" qanun isə vergi borcu olan şirkətlərin tenderlərdə iştirakını qadağan edir. Şirkətin hazırda vergi borcu yoxdur.



Şirkətlə bağlı müəmmalardan biri də onun yaranma tarixi ilə bağlıdır. Açıq mənbələrdə qeyd edilir ki, "Koneks Construction" MMC 2016-cı ildən tikinti sektorunda fəaliyyət göstərir. Lakin yuxarıda qeyd etdiyimiz kimi, Dövlət Vergi Xidmətinin reyestr məlumatlarında şirkətin 2019-cu ildə yarandığı qeyd edilib. 2019-cu ildə yaradılan "Koneks Construction" MMC 3 il əvvəl necə fəaliyyət göstərib? Şirkətin nə veb-səhifəsi, nə də əlaqə nömrələri var. Bu baxımdan, yuxarıdakı suala cavab tapmaq mümkün olmayıb.

Xəbərin üzərindən bir həftədən çox vaxt keçməsinə baxmayaraq nə haqqında danışılan tenderin qalibi olmuş şirkət, nə həmin tenderlə bağlı xəbərdə adı hallanan Mədəniyyət Nazirliyi, nə də nazirliyin "Əsaslı Tikinti və Təchizat" Məhdud Məsuliyyətli Cəmiyyəti deyilənlərə münasibət bildirməyib. Tərəflərin mətbuatda çoxsaylı suallar yaratmış satınalma ilə bağlı susqunluğu isə təbii olaraq diqqət çəkir.

Qeyd edək ki, keçmiş mədəniyyət nazirləri - Əbülfəs Qarayevin və Anar Kərimovun zamanında onların rəhbərlik etdiyi qurumun xətti ilə keçirilən tenderlərin şəffaflığı, obyektivliyi istər mediada, istərsə də cəmiyyətdə ciddi müzakirə mövzusuna çevrilib. Üstəlik, Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) Mədəniyyət Nazirliyində 2020 və 2022-ci illərdə keçirdiyi antikorrupsiya əməliyyatları nəticəsində başlanan istintaq işinin, eləcə də həbs olunan vəzifəli şəxslərin məhkəmə işinin materialları təsdiqləyib ki, sözügedən qurumda dövlət satınalmaları bir çoxları üçün rüşvət və korrupsiya mənbəyidir. Hazırkı rəhbərliyin Mədəniyyət Nazirliyində "təmizləməyə", islahatlara start verdiyini nəzərə aldıqda "Koneks Construction" MMC-nin qalib elan edildiyi tenderlə bağlı sualların ortaya çıxması təəccüb doğurur. Bu cür suallar, adətən, bir zamanlar, yəni Əbülfəs Qarayevin, Anar Kərimovun vaxtında keçirilən tenderlərlə bağlı yaranardı. Məsələn, yaxşı yadımızdadır, "Stone Construction" adlı bir şirkətin illər öncə Mədəniyyət Nazirliyinin birdən-birə bir neçə tenderini qazandığı məlum olmuşdu; ən qəribəsi isə o idi ki, bu şirkət necə fərasətli çıxmışdısa həm Bakı Şəhər Mədəniyyət Baş İdarəsinə 305 min manata (!) dəftərxana ləvazimatı, həm Bərdə Regional Mədəniyyət İdarəsinə 66.646 manata (!) odun yanacağı, həm də başqa bir dövlət qurumuna "Kamaz", "Ford" və "Volvo" təkərləri, üstəlik, 17 ədəd akumulyator satmışdı!

Qarayevin, Kərimovun post tutduqları dövrdə buna bənzər tender xəbərləri, az qala, adiləşmişdi.

İndi geyim satan şirkətin təmir işləri ilə bağlı satınalma müsabiqəsinin qalibi olduğu barədə xəbəri oxuyanda istəristəməz düşünməli olursan: mümkündürmü ki, Mədəniyyət Nazirliyində kimlərsə hələ də adıçəkilən sabiq nazirlərin vəzifədə olduğu illərin "nostalgiyası" ilə yaşayırlar?!

***Sənan Mirzə***

# Administrasiya Xankəndidəki yanğınla bağlı məlumat yaydı

***Xankəndi şəhəri yaxınlığında yanacaqdoldurma məntəqəsində ehtiyat yanacaq çənləri parkında baş vermiş yanğın 2023-cü il sentyabrın 26-da əraziyə göndərilən Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi (FHN) Dövlət Yanğından Mühafizə Xidmətinin qüvvələri tərəfindən qısa müddətdə söndürülüb.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Prezidentinin Administrasiyası məlumat yayıb.

Bildirilib ki, hadisə ilə əlaqədar ərazidə axtarış-xilasetmə və digər zəruri təhlükəsizlik tədbirlərinin görülməsi məqsədilə 2023-cü il sentyabrın 27-də FHN-in növbəti 10 xüsusi təyinatlı nəqliyyat vasitəsi 50 nəfərdən ibarət şəxsi heyətlə Ağdam-Əsgəran-Xankəndi yolu ilə yola salınıb və artıq onlar tərəfindən müvafiq işlər həyata keçirilir.

# Ceyhun Bayramov Blinkenin köməkçisi ilə görüşdü



***Sentyabrın 28-də xarici işlər naziri Ceyhun Bayramov Azərbaycanda səfərdə olan ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi vəzifələrini icra edən Yuri Kimi qəbul edib.***

XİN-dən "Unikal"ya bildirilib ki, görüş zamanı Azərbaycanın anti-terror tədbirlərindən sonra bölgədə cari vəziyyət, eləcə də humanitar yardım məsələləri müzakirə olunub.

Nazir Ceyhun Bayramov bölgədə əsas təhdid olan qanunsuz erməni silahlı qüvvələrinin mövcudluğuna son qoyulmasının sülh və sabitliyə xidmət edəcəyini diqqətə çatdırıb.

Tərksilah prosesi, erməni sakinlərin ehtiyaclarının qarşılanması istiqamətində ölkəmizin həyata keçirdiyi tədbirlər, erməni sakinlərin reinteqrasiyası üzrə aparılan danışıqlar barədə qarşı tərəfə məlumat verilib.

Hazırda Azərbaycana qarşı davam edən qarayaxma kampaniyasının heç bir əsasının olmadığı, Azərbaycanın erməni sakinlərə heç bir təhdid törətmədiyi diqqətə çatdırılıb. Azərbaycana qarşı səslənən iddiaların əsassız olduğunun, bunun sübut edilməsi üçün Azərbaycanın BMT-nin ölkəmizdəki Rezident Əlaqələndiricisinin rəhbərliyi altında BMT orqanlarının Azərbaycanın Qarabağ bölgəsinə səfərinin təşkil edilməsinə hazır olduğumuz bildirilib.

Nazir Ceyhun Bayramov ölkəmizin cəlb olunmuş beynəlxalq tərəfdaşlar vasitəsilə həyata keçirdiyi bütün səylərinə baxmayaraq, Ermənistan tərəfinin sülh prosesinə maneçilik törətməkdə davam etdiyi diqqətə çatdırılıb. Azərbaycanın qarşılıqlı şəkildə ərazi bütövlüyü və suverenliyə hörmət əsasında Ermənistanla sülh prosesində maraqlı olduğu vurğulanıb.

Görüşdə tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# "Qarabağ Azərbaycandır!" - Fransalı senator

**"Qarabağ Vətənə qayıdır".**

Bu barədə Fransa Senatının üzvü Natali Qule tvitter sosial şəbəkəsində yazıb.

"Evinə xoş gəldin. Qarabağ Azərbaycandır", - Natali Qule qeyd edib.

# Xankəndidə axtarış-xilasetmə işləri belə aparılır

***Xankəndi şəhəri yaxınlığında yanacaqdoldurma məntəqəsində ehtiyat yanacaq çənləri parkında baş vermiş yanğın 2023-cü il sentyabrın 26-da əraziyə göndərilən Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi (FHN) Dövlət Yanğından Mühafizə Xidmətinin qüvvələri tərəfindən qısa müddətdə söndürülüb.***

"Unikal" Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının yaydığı məlumata istinadən xəbər verir ki, hadisə ilə əlaqədar ərazidə axtarış-xilasetmə və digər zəruri təhlükəsizlik tədbirlərinin görülməsi məqsədilə 2023-cü il sentyabrın 27-də FHN-in növbəti 10 xüsusi təyinatlı nəqliyyat vasitəsi 50 nəfərdən ibarət şəxsi heyətlə Ağdam-Əsgəran-Xankəndi yolu ilə yola salınıb və artıq onlar tərəfindən müvafiq işlər həyata keçirilir.

# "Bu tədbirlər pandemiyanın fəsadlarının qarşısını aldı" - Səhiyyə naziri



***Ölkədə ən çətin və mürəkkəb bir dövrdə icbari tibbi sığortanın tətbiqi vətəndaşlara verilən dəyərin ən böyük təzahürüdür.***

"Unikal" xəbər verir ki, bunu səhiyyə naziri Teymur Musayev deyib.

O qeyd edib ki, insan kapitalının inkişafı, səhiyyənin rəqəmsallaşması və maliyyələşməsi sahələrinə icbari tibbi sığortanın verdiyi töhfə olduqca vacibdir: "Pandemiyanın ilk günlərində icbari sığortanın tətbiq etdiyi rəqəmsal tədbirlər və proqramlar pandemiyanın törədə biləcəyi fəsadların qarşısını aldı. Eyni zamanda, istər dövlət, istərsə də özəl sektorlar arasındakı əməkdaşlığı yeni mərhələyə daşıdı".

"Bu gün Azərbaycanda istər dövlət, istərsə də özəl səhiyyə sektoru bir-biri ilə tamamlayıcı rol oynayır. Qəbul edilən "Dövlət və özəl tərəfdaşlıq haqqında" qanun bu sahədə yeni əməkdaşlıq imkanlarını təmin edib. Bu yaxınlarda həmin məsələ ilə əlaqəli qaydalar işlənib aidiyyəti üzrə təqdim olunacaq" - deyə nazir əlavə edib. .

Onun sözlərinə sözlərinə görə, bu da ölkədə icbari tibbi sığorta üçün böyük və misilsiz imkanlar yaradacaq: "Əhalinin sağlamlıq göstəricilərində son illərdə irəliləyişlər hiss olunur. Əgər bugünkü gedişat davam etsə, yaxın illərdə peşəkar həkimlərin də iştirakı ilə gələcəkdə ölkədə daha sağlam nəsillər formalaşacaq".

# Buraxılış və qəbul imtahanlarının sualları ilə bağlı rəsmi açıqlama

***Son zamanlar məktəblərə göndərilən qiymətləndirmə barədə təlimatlarımızda da qeyd olunub ki, qapalı test tapşırıqları yeganə qiyməyləndirmə vasitəsi deyil.***

"Unikal" xəbər verir ki, bunu Elm və Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsildə məzmun tədris və qiymətləndirmə şöbəsinin müdiri Vəfa Yaqublu deyib.

Onun sözlərinə görə, test tapşırıqları bütün fənlərə müvafiq deyil. Qapalı testlərlə şagirdin biliyi 60-70 faiz qiymətləndirildiyi üçün, açıq tipli suallara ehtiyac yaranır. Bu suallarla şagirdin yazı işi, şifahi nitqi qiymətləndirilir.

Vəfa Yaqublu buraxılış və qəbul imtahanlarında sualların məzmununa da toxunub: "Bu suallar şagirdin baxış bucağını və öyrəndiklərini həyata tətbiqini hansı formada başa düşdüyünü ölçən suallardır".

# Ermənistan-Türkiyə sərhədi açılacaq?

***Türkiyə ilə Ermənistan arasında münasibətlərin nizamlanması, o cümlədən sərhədlərin açılması tamamilə rəsmi İrəvanın atacağı addımlardan asılıdır.***

"Unikal" xəbər verir ki, bu barədə "RİA Novosti"yə Türkiyə prezidentinin dəftərxanasındakı mənbə bildirib.

"Bizim (Türkiyə və Ermənistan - red.) münasibətlərimizin normallaşmasına, görüşlərin keçirildiyi faktiki prosesə gəlincə, İrəvanın konstruktiv, səmimi və sülhsevərliyini görəndə növbəti addımlar barədə danışmaq mümkün olacaq. Biz danışıqları davam etdirməyə hazırıq", - mənbə bildirib.

Agentliyin həmsöhbəti qeyd edib ki, regionda yeni vəziyyət yaranıb, əməkdaşlıq üçün geniş imkanlar var. "Belə bir yanaşma olduqda, düşünürəm ki, sərhəd məsələsinə qədər o prosesdə konkret dəyişikliklər görəcəyik".

Ötən gün "Hürriyyət" qəzeti öz mənbələrinə istinadən yazıb ki, Ermənistan Türkiyəyə üçüncü ölkə vətəndaşları üçün sərhədləri açmağı təklif edib, Ankara bu təklifin əleyhinə deyil.

Xatırladaq ki, Ermənistanla Türkiyə arasında diplomatik əlaqələr yoxdur və sərhəd Ankaranın təşəbbüsü ilə 1993-cü ildən bağlıdır.

***Gülayə Mecid***

# Naxçıvanda vəzifəli şəxslər işdən çıxarıldı

***Şahbuz və Culfa rayonlarının təhsil şöbələrinin müdirləri işdən çıxarılıb.***

"Unikal" xəbər verir ki, Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini, nazirin səlahiyyətlərini icra edən Ovni Muradov əmr imzalayıb.

Əmrə əsasən, Şahbuz Rayon Təhsil Şöbəsinin müdiri Araz Məmmədov və Culfa Rayon Təhsil Şöbəsinin müdiri Mehdixan Əliyev vəzifəsindən azad edilib.

# Mahir Quliyevin son ümidi...

## Sabiq icra başçısı Ali Məhkəmədən hansı qərarı gözləyir?

***Ötən ay məlum oldu ki, Biləsuvarın məhkum edilmiş sabiq icra başçısı Mahir Quliyev kassasiya şikayəti verib. O, Şirvan Apellyasiya Məhkəməsinin qərarından narazı qalıb.***

Nəticədə sabiq icra başçısı yüksək instansiya məhkəməsindən bəraət qərarı çıxarılmasını xahiş edib. İşə Ali Məhkəmədə baxılacaq.

Qeyd edək ki, Mahir Quliyev bir müddət əvvəl kassasiya şikayəti versə də, sonradan şikayətini geri götürmüşdü.



Onu da deyək ki, Biləsuvarın həm vəzifəsini, həm də azadlığını itirən keçmiş rəhbəri M.Quliyev Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən keçirilən əməliyyatla həbs olunub. O, Cinayət Məcəlləsinin 179-cu (mənimsəmə və israf etmə), 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə), 311.3.2-ci (təkrar rüşvət alma) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə təqsirli bilinərək, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 11 il azadlıqdan məhrum edilib. Hökmə əsasən, Mahir Quliyevin 2 mənzili və 1 avtomobili dövlət nəfinə müsadirə olunub. Şirvan Apellyasiya Məhkəməsi hökmü qüvvədə saxlayıb.

Bundan sonra Biləsuvarın sabiq icra başçısı son ümidini Ali Məhkəməyə bağlayıb.

Belə ki, bu günlərdə Ali Məhkəmənin həbsdəki başqa bir keçmiş rayon rəhbəri - Kürdəmir Rayon İcra Hakimiyyətinin sabiq başçısı Ceyhun Cəfərov və rayonun digər vəzifəli şəxsləri barəsində qərarının ardından M.Quliyevin bir qədər nikbinləşdiyi deyilir.

Məsələ burasındadır ki, C.Səfərovun verdiyi kassasiya şikayətinə hakim Hafiz Nəsibovun sədrliyi ilə keçirilən iclasda baxılıb. Məlum olub ki, kassasiya şikayətində iş üzrə dəymiş ziyanın tam ödənildiyi, digər əsasların nəzərə alınması, məhkum şəxslərə təyin olunmuş cəzanın yüngülləşdirilməsinin xahiş olunduğu bildirilib.

Məhkəmənin qərarına əsasən, sabiq icra başçısı Ceyhun Cəfərov, icra başçısının birinci müavini Tacəddin Novruzov, Rayon Mərkəzi Xəstəxanasının direktoru Eynulla Novruzov, həmin xəstəxananın baş həkimi Məhəmməd Musayev, rayon Təhsil Şöbəsinin müdiri Mətləb Allahverdiyev, Təhsil Şöbəsinin baş mühasibi Rəcəb Hüseynovun kassasiya şikayətləri qismən təmin edilib. Nəticədə Ceyhun Cəfərovun cəzası 4 il 6 aya, Tacəddin Novruzovun cəzası 4 il 5 aya, Eynulla Novruzov, Məhəmməd Musayev, Mətləb Allahverdiyev və Rəcəb Hüseynovun cəzaları 4 il 4 aya endirilib. Şikayətin qalan hissələri təmin olunmayıb.

Xatırladaq ki, sabiq icra başçısı və rayonun digər vəzifəli şəxsləri Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən 2020-ci ilin avqust ayında keçirilən əməliyyatla həbs olunublar. Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə sabiq icra başçısı Ceyhun Cəfərov, icra başçısının birinci müavini Tacəddin Novruzov və şöbə müdiri Natiq Kərimov 8 il 6 ay, Rayon Mərkəzi Xəstəxanasının direktoru Eynulla Novruzov, həmin xəstəxananın baş həkimi Məhəmməd Musayev, rayon Təhsil Şöbəsinin müdiri Mətləb Allahverdiyev, Təhsil Şöbəsinin baş mühasibi Rəcəb Hüseynov 8 il üç ay, Yaşıllaşdırma İdarəsinin rəisi Emin Sadıqov 4 il, Mənzil İstismar Sahəsinin rəisi Sərvər Məmmədov 2 il 6 ay azadlıqdan məhrum edilmişdi. Kommunal Müəssisələr Kombinatının direktoru Məhəmmədəli Surxayev isə 3 il müddətinə azadlığın məhdudlaşdırılması şərti ilə 2 min manat cərimə olunmuşdu. Sonradan Şirvan Apellyasiya Məhkəməsi hökmü dəyişib. Qərara əsasən, Ceyhun Cəfərovun cəzası 6, Tacəddin Novruzov və şöbə müdiri Natiq Kərimovun cəzası 5 il 10 aya, Eynulla Novruzov, Məhəmməd Musayev, Mətləb Allahverdiyev, Rəcəb Hüseynovun cəzası 5 il 6 aya, Emin Sadıqovun cəzası isə 2 ilə endirilmişdi.

C.Səfərov və onunla bərabər həbs edilənlərin cəzalarının daha da yüngülləşdirilməsindən sonra M.Quliyev Ali Məhkəmədən özü ilə bağlı da oxşar qərar gözləyir. Düzdür, sabiq icra başçısı 11 il həbs qərarının tamamilə dəyişdiriləcəyinə, azadlığa buraxılacağına, demək olar, inanmır. Lakin o, cəza müddətinin aşağı endiriləcəyinə ümid bəsləyir. Ya da ən azından barəsindəki qərarın Şirvan Apellyasiya Məhkəməsinə qaytarılacağını gözləyir.

M.Quliyevin bu son ümidinin doğrulub-doğrulmayacağını isə zaman göstərəcək.

Xatırladaq ki, o, 2020-ci ilin mayında saxlanılıb və 3 il 4 aydır ki, həbsdədir.

***Toğrul Əliyev***

# Azərbaycanda özəl uşaq bağçalarının fantastik qiymətləri!

## İllik minimum qiymət 4800 manatdan başlayır, hətta aylıq 600-800 manata da bağçalar varmış...

***Azərbaycanda hər tədris ili başlayanda, aktual mövzulardan biri də bağça qıtlığıdır. Dövlət bağçalarında yer tapmaq çətindir. Nisbətən uyğun qiymətə özəl bağçalarda da yer tapmaq asan olmur. Ümumiyyətlə, bağça problemi necə həll olunmalıdır? Biznes adamlarının bu sahəyə marağı da o qədər çox deyil. Maraqlıdır, biznes adamları niyə özəl bağça açıb uyğun qiymətlərlə bazara çıxmaq fikrindən uzaqdırlar?***

Bu günlərdə mövzu ilə bağlı iqtisadçı Toğrul Vəliyev yerli mediaya bildirib ki, bağça açmaqda dövlət maraqlı olmalıdır, özəl sektorlar yox: "Azərbaycanda uşaq bağçalarının qıtlığı daim mövcud olan faktordur. Bu problemlə mübarizədə əsas iş dövlətin çiyinlərindədir. Çünki bizdə dövlət bağça açmasa, çətin ki, biznesmenlər bu istiqamətə maraqlı olsunlar. Nəzərə almaq lazımdır ki, özəl bağçaların sayı xarici təcrübəyə nisbətən Azərbaycanda az da deyil".



Ekspert əlavə edib ki, Azərbaycanda ailələrin uşaqlarını özəl bağçaya qoyacaq qədər maddi imkanı da yoxdur: "Çünki özəl bağçaların qiyməti heç də ucuz deyil". Lakin "Unikal"ın araşdırması Azərbaycanda xeyli özəl uşaq bağçasının mövcud olduğunu göstərib, yəni müxtəlif vəzifəli şəxslər və həmin məmurlara yaxın iş adamları məktəbəqədər təhsil müəssisəsi açmaqda yetərincə maraqlıdırlar.

Bununla belə, iqtisadçının özəl bağçalarda qiymətlərin heç də ucuz olmadığı barədə dedikləri reallığa tamamilə uyğundur. Ekspertin vurğuladığı kimi, həmin qiymətlər aylıq ən azı 200-250 manatdan başlayır. Bu isə əksər ailələr üçün həqiqətən də əlçatmazdır. Düzdür, bir sıra valideynlər hazırda fəaliyyət göstərən özəl bağçalarda yer tapa bilirlər, lakin həmin valideynlərin aylıq gəliri məntiqlə 1500-2000 manatdan az olmamalıdır. Bu, şübhəsiz ki, Azərbaycan reallığında əsla asan deyil, hətta mütləq əksəriyyət üçün əlçatmazdır.

Qeyd edək ki, ötən ilin yayında Bakıda ən çox sayılıb-seçilən bir neçə uşaq bağçasının qiymətləri açıqlanmışdı. Məlum olmuşdu ki:"Göyərçin" uşaq bağçasında Azərbaycan dilində tədris yoxdur. Bu bağçada rus və ingilis dili üzrə tədris var. Rus bölməsi üzrə qiymətlər aylıq 450, ingilis bölməsi üzrə isə 500 manatdır.

"Sehirli Dayə" uşaq bağçasında endirimsiz real aylıq qiymətlər 400, endirimlə isə 360 manatdır.

"Mələklərim" uşaq bağçasında isə qiymətlər aylıq 250 manatdır. Burada uşaqlar əl motorikalarını inkişaf etdirir, müxtəlif intellektual oyunlar oynayırlar.

"İndigo" uşaq bağçasında tam günə görə qiymətlər aylıq 450, yarım günə görə isə 250 manatdır.

"Funny Bunny"də aylıq qiymət 300, "Bambi"də 250 manatdır. "Sabis Sun"ın uşaq bağçasında isə 3 yaşdan qəbul var və bu yaşda olan uşaqlar üçün illik ödəniş 11 min manatdır.

Fin təhsil proqramını tədris edən "XXI Əsr Məktəbi"ndə isə illik qiymətlər bölmədən asılı olmayaraq 7 min manatdır. Səhər 08:30-dan axşam 18:00-dək fəaliyyət göstərən bağçanın aylıq ödənişinə günlük 3 dəfə qidalanma, bir dəfə meyvə saatı, rəsm, musiqi, gimnastika daxildir. Azərbaycan və rus bölməsində olan uşaqlara həftədə 3 dəfə xarici dil olaraq ingilis dili tədris edilir. İngilis dili bölməsində isə tədris ancaq ingilis dilindədir.

"Baku Oxford School"da isə 3 yaşdan məktəbəqədər qruplarda ödəniş illik 8 min manatdır.

"Baby on board" uşaq bağçasında səhər 08:00-dan axşam 18:00-dək aylıq 400 manat ödəniş tələb olunur. Burada həmçinin türk və rus dilində bölmələr fəaliyyət göstərir. Aylıq qiymətə 5 dəfə qidalanma, şahmat, ingilis dili, gimnastika daxildir.

"Bakı Montessori Premium Uşaq Bağçası"nda qiymətlər 400 manatdan başlayır. Digər bağçalarda olan əyləncələr və gündə 5 dəfə qidalanma qiymətə daxildir.

Əldə etdiyimiz məlumata görə, əksər uşaq bağçalarında bu ildən qiymətlər dəyişib, bir az da konkretləşdirsək, daha da yüksəlib. Hətta həmin bahalaşmanı nəzərə almasaq və keçən ilki qiymətlərlə hesablama aparsaq, aydın olacaq ki, Azərbaycanda özəl uşaq bağçalarının qiyməti aylıq 250 manatdan başlayır. Qiymətlər bölmələr üzrə fərqlənir. Nəticə olaraq belə qənaətə gəlmək olar ki, Bakıdakı özəl bağçaların illik qiyməti 4 800 manatla 11 min manat arasında dəyişir.

Yeri gəlmişkən, özəl bağçalardakı keyfiyyətə gəldikdə isə valideynlərin bir hissəsi bundan razılığını bildirsələr də, bir hissəsi xidmətdən, keyfiyyətdən narazı olduqlarını deyirlər. Bəzi körpəli valideynlər övladının qidalanmasına həssas yanaşılmadığını bildirir.

Onu da deyək ki, Azərbaycanda bir sıra indiki və sabiq məmurların, deputatların ailə üzvlərinə, yaxın qohumlarına məxsus özəl bağçaların olduğu barədə ölkə mediasında dəfələrlə yazılıb. Hətta bir müddət öncə tanınmış sosioloq, professor Əhməd Qəşəmoğlu mətbuata açıqlamasında da bildirmişdi ki, bu gün uşaq bağçaları da məişət əşyalarının satışı kimi bir biznes sahəsinə çevrilib: " Hansısa məmurun və ya sahibkarın pulu var və o, bu vəsaiti həyat yoldaşına, qızına, bacısına verir ki, uşaq bağçası açıb oraya uşaqlar və əməkdaşlar yığsın. Əsas məqsəd tezliklə yatırılan vəsaiti çıxarmaq, gəlir əldə etməkdir..."

***Toğrul Əliyev***

# Zaur Mikayılov türkiyəli nümayəndələrlə görüşdü



***Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov Türkiyə Cümhuriyyəti Tarım və Orman Bakanı İbrahim Yımaklı və onu müşayət edən heyətlə görüşüb.***

"Unikal" xəbər verir ki, görüşdə su təhlükəsizliyi prioriteti istiqamətində işlər, su qıtlığına qarşı uzun müddətli stratejik həll yolları, sudan səmərəli istifadə istiqamətində maarifləndirmə, Türkiyə və Azərbaycan arasında effektiv təcrübə mübadiləsi və s. məsələlər müzakirə edilib.

Gələcəkdə bu istiqamətdə ikitərəfli əlaqələrin genişləndirilməsinə dair qarşılıqlı razılaşma əldə olunub.

# Müsadirə edilmiş texnika və silah-sursatın yeni siyahısı



***Azərbaycanın Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirləri başa çatdıqdan sonra müsadirə edilmiş döyüş texnikası, silah və sursat barədə sentyabrın 28-i saat 10:00-a olan məlumat açıqlanıb.***

"Unikal" Müdafiə Nazirliyinə istinadən siyahını təqdim edir:

1. Atıcı silah və qumbaraatanlar - 1132
2. Artilleriya silahları - 61
3. HHM vasitələri - 235
4. Döyüş sursatları - 434295
5. Təchizat və ləvazimatlar - 2732
6. Optik və digər cihazlar - 231
7. Zirehli texnika - 26
8. Avtomobil texnikası - 125
9. Qoşqu - 21

# İşçilərin hüquqlarını pozan şirkət 20 min manat cərimələndi



***"Şirvan-Xidmət" ASC tərəfindən işçilərin əmək hüquqlarının pozulmasına dair vətəndaş müraciəti əsasında Şirvan şəhər prokurorluğunda araşdırma aparılıb.***

Şirvan şəhər Prokurorluğundan "Unikal"a verilən xəbərə görə, araşdırmalarla qeyd olunan hüquqi şəxs tərəfindən əmək qanunvericiliyinin tələbləri pozularaq işçilərin əmək müqaviləsi hüquqi qüvvəyə minmədən işlərin yerinə yetirilməsinə cəlb edilməsi müəyyən olunub.

Faktla bağlı "Şirvan-Xidmət" ASC barəsində İnzibati Xətalar Məcəlləsinin 192.1-ci (Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb etmə) maddəsilə inzibati xəta haqqında iş üzrə icraat başlanılaraq baxılması üçün aidiyyəti üzrə məhkəməyə göndərilib.

Şirvan şəhər Məhkəməsinin qərarı ilə ASC 20 min manat məbləğində cərimə edilib.

# Xankəndinə 32 ton benzin göndərildi

***Azərbaycan Respublikasının Qarabağ bölgəsində sosial, humanitar, iqtisadi və infrastruktur məsələlərinin həlli və orada yaşayan erməni sakinlərinin ehtiyaclarının təmin olunması üçün təxirəsalınmaz tədbirlər davam etdirilir.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Prezidentinin Administrasiyası məlumat yayıb.

Bildirilib ki, sentyabrın 27-də bağçaların, təcili tibbi yardım və yanğınsöndürmə xidmətlərinin yanacaq-sürtkü materialları ilə təmin edilməsi məqsədilə Ağdam-Əsgəran-Xankəndi yolu vasitəsilə 32 ton benzin dolu növbəti avtomobil yola salınıb.



## Xərçəngin müalicəsi üçün unikal dərman istehsal edildi

***Moskvada onkologiyanı işığın köməyi ilə müalicə etmək üçün unikal dərman istehsal etməyə başlanılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Moskva meri Sergey Sobyanin məlumat verib.

"Xəstəliyin ilkin mərhələlərində bu müalicə üsulu əməliyyatı əvəz edə bilər. Dərman xəstəyə yeridilir, şiş hüceyrələrində toplanır, sonra lazer və ya LED şüalanması ilə aktivləşdirilir" , - Sobyanin "Telegram" kanalında yazıb.

Onun sözlərinə görə, dərman xərçəng hüceyrələrini demək olar ki, tamamilə məhv edə bilər.

Qeyd edək ki, 2023-cü ilin iyul ayının sonunda Rusiya xərçəng hüceyrələrini içəridən məhv etmək üçün yeni üsul hazırladığını elan edib. Alimlər yüksək tezlikli maqnit nanohissəciklərinin istehsalı üçün texnologiya hazırlayıblar. Onlar şişə yeridilir və 52-54 dərəcə istilikdə qızdırılır. Bununla da xəstə hüceyrələr məhv olur.

*Gülayə Mecid*

## Vəzifəli şəxslər üçün maliyyə sanksiyaları tətbiq ediləcək

***"Yeni Rəqabət Məcəlləsi təsnifləşdirilmiş məsuliyyət tədbirlərinin tətbiqi nəticəsində cəzanın çəkindirici məqsədinə nail olunmasını nəzərdə tutur".***

"Unikal" xəbər verir ki, bunu İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında çıxışı zamanı deyib.

Xidmət rəisi qeyd edib ki, təbii inhisar subyektləri üçün xüsusi maliyyə sanksiyaları, vəzifəli şəxslər üçün əlavə maliyyə sanksiyaların tətbiq ediləcək.

"Sənədə əsasən, yüngülləşdirici və ağırlaşdırıcı amillər müəyyən ediləcək. Qanunsuz gəlirlə bağlı əlavə maliyyə sanksiyası tətbiq olunacaq" , - deyə o əlavə edib.

## Kolleclərin boş qalan yerlərinə ixtisas seçimi başlayır

***Dövlət İmtahan Mərkəzi "Abituriyent" jurnalının 11-ci nömrəsini nəşr edib.***

DİM-dən "Unikal"a verilən məlumata görə, jurnalın bu nömrəsində 2023/2024-cü tədris ili üçün Azərbaycan Respublikasının tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan yerlərinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi elanı, "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nin doldurulma qaydası, qəbul aparılan ixtisasların siyahısı, plan yerləri haqqında məlumatlar Azərbaycan və rus dillərində dərc olunub.

Qeyd edək ki, ixtisas seçimi 2023-cü il sentyabrın 29-dan oktyabrın 2-dək internet vasitəsilə aparılacaq.

# Lütfəli Babayevin şirkətləri bağlandı

## Sabiq icra başçısı Azərbaycandakı biznesini xaricə köçürür?

***Zərdab rayonunun keçmiş icra başçısı Lütfəli Babayevin Azərbaycandakı tikinti şirkətləri fəaliyyətini dayandırıb. Bu barədə məlumat verən mənbənin sözlərinə görə, onun paytaxt Bakıda tikinti sahəsində çalışan iki şirkəti mövcud olub. Lakin Babayev icra başçısı postunu itirdikdən bir müddət sonra həmin şirkətlərin fəaliyyəti zəifləyib. İddiaya görə, həmin şirkətlərdən biri Binəqədi rayonunun 7-ci mikrorayon, Abay Kunanbayev küçəsində, 3123-cü məhəllədə 12 mərtəbəli bina tikib. Binanın sahəsi 10 min kvadrat metrə yaxındır.***

Tikintini həyata keçirən şirkətə isə keçmiş icra başçısının oğlu Babəli Babazadə nəzarət edib. O, atası Zərdab Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsində çalışarkən "BLB" Məhdud Məsuliyyətli Cəmiyyətini (MMC) yaratmışdı. Bu MMC-nin adının açması "Babəli Lütvəli Babazadə" demək idi.

Sabiq icra başçısının ailəsinə məxsus daha bir şirkət isə "Top Point" (MMC) olub. Şirkət Lütvəli müəllimin ailə üzvlərindən biri Rübabə Babayevaya məxsus idi. Hər iki MMC akademik Mirəli Qaşqay küçəsi ev 63A, mənzil 26 ünvanında hüquqi qeydiyyatdan keçirilmişdi.

Lütvəli Babayevin "vurulmasının" ardından oğlu Babəli Babazadə Azərbaycandakı biznesini Rusiyaya köçürüb. Ötən il bununla bağlı yayılan məlumatda qeyd edilirdi ki, Babəli Babazadə Moskvada "Liqa-Stroy" Məhdud Məsuliyyətli Cəmiyyətini (OOO LİQA-STROY) yaradıb. Qanuni təmsilçisi Rusiya vətəndaşı Kirill Ayvenqoviç adlı şəxs olan şirkətin nizamnamə kapitalı 100 min rubl idi. "Liqa-Stroy" Rusiya paytaxtında binaların inşası üçün lisenziya almışdı.



Belə görünür ki, sabiq icra başçısı Azərbaycanın tikinti bazarından çəkilməyə qərar verib və bu sektordakı biznesini ölkə xaricinə daşımağı üstün tutub.

Xatırladaq ki, L.Babayev 2007-ci ildən etibarən Zərdab rayonuna başçılıq etmiş, olduqca mənfi reputasiya qazanmış, fəaliyyəti ilə yerli əhalidə böyük narazılıqlar doğurmuşdu. Hətta Lütvəli müəllimin vəzifədən azad edildiyi xəbərinin Zərdabda toy-bayram kimi qarşılandığı barədə məlumatlar yayılmışdı.

Sabiq başçı bu postdan 2019-cu ildə, 60 yaşının tamam olduğu ərəfədə azad edilmişdi. Bu səbəblə də onun "vurulmasında" yaşlı kadr amilinin rol oynaması istisna edilirdi. Çünki L.Babayev hələ heç pensiya yaşına da çatmamışdı. Ona görə də həmin vaxt yerli KİV belə ehtimal edirdi ki, Lütvəli müəllim korrupsiya da başda olmaqla bir çox neqativ əməllərinə, qeyri-qənaətbəxş fəaliyyətinə görə vəzifəsindən azad olunub. Bundan başqa, onun Zərdaba rəhbərlik etdiyi dövrdə bu rayon ölkənin iqtisadi baxımdan ən geridə qalmış rayonları arasında göstərilirdi, yerli sakinlərin də dediyi kimi, baxımsızlıq, təsərrüfatsızlıq baş alıb gedirdi. Zərdablılar çətin sosial-iqtisadi vəziyyətdə yaşadığı, işsizlikdən əziyyət çəkdiyi bir vaxtda isə sabiq başçının ailə biznesini günbəgün çiçəkləndirməsi maraq doğururdu.

Onu da deyək ki, L.Babayevin maraqlı karyerası var: Mingəçevirdə məktəb direktoru olarkən bu vəzifədən həmin şəhərin icra hakimiyyətində yüksək vəzifəyə (ümumi şöbənin müdiri) gətirilmiş, 1997-ci ilə qədər həmin vəzifədə işləmiş, ardınca nəyə görəsə elə həmin il yenidən müəllimlik peşəsinə qayıdaraq o vaxtlar mövcud olan San-Marino Universiteti adlı qalmaqallı ali məktəbin Mingəçevir filialında müəllim işləməyə başlamışdı. İki il sonra isə Lütvəli müəllim yenidən şəhər İcra Hakimiyyətinə qayıtmış, bu dəfə Şəhər İcra Hakimiyyəti Başçısı Aparatında ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri olmuşdu.

2005-ci ilə qədər həmin vəzifədə işlədikdən sonra isə Mingəçevirin icra başçısı təyin olunan L.Babayev bu vəzifədə iki il işlədikdən sonra, 2007-ci ildə isə Zərdab Rayon İcra Hakimiyyətinin başçısı postuna təyinat almışdı. Beləliklə, onun nəinki sadə zərdablılarla, hətta rayonun vəzifəli şəxsləri və iş adamları ilə çox sayda qalmaqallarla müşahidə edilən, Zərdaba ümumi rəhbərlik baxımından isə uğursuzluqlarla dolu dövrü start götürmüşdü. Həmin dövr 4 il öncəyədək davam etmiş, sonda isə L.Babayev özünə, yaxınlarına geniş biznes şəbəkəsi qurmuş, zərdablılara isə saysız-hesabsız sosial-iqtisadi problemlər miras buraxmışdı...

*Toğrul Əliyev*

# Sümük iliyi transplantasiyası cərrahi müdaxilə olmadan həyata keçiriləcək

***"Sümük iliyi transplantasiyası yeni alınan avadanlıqlar vasitəsilə cərrahi müdaxilə olmadan həyata keçiriləcək".***

"Unikal" xəbər verir ki, bunu İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İnzibati idarəetmə departamentinin Təchizat və satınalma şöbəsinin müdiri Anar Rəhimov deyib.

Anar Rəhimov Xidmətlər Zərfinə yeni daxil olan sümük iliyi transplantasiyası üçün yeni əhəmiyyətli avadanlıqlar alındığını bildirib: "Vətəndaşlar üçün dəyəri yüksək transplantasiya əməliyyatları icbari tibbi sığorta ilə artıq əlçatandır. Sümük iliyi transplantasiyası yeni alınmış avadanlıqlar vasitəsilə müasir müalicə üsulu olan aferez yolu ilə cərrahi müdaxilə olmadan həyata keçiriləcək. Artıq leykoz, mieloma, limfama kimi qan xəstəliklərindən əziyyət çəkən şəxslərin icbari tibbi sığorta çərçivəsində effektiv müalicəsi mümkün olacaq. Müasir tələblərə uyğunlaşan



effektiv müalicə üsulunun tətbiqi sümük iliyi transplantasiyası əməliyyatının icrası üçün lazımi avadanlıq və resurslara qənaətə də imkan verir".

Şöbə müdiri Agentlik tərəfindən alınan və əməkdaşlıq çərçivəsində beynəlxalq təşkilatlar tərəfindən ianə olunan avadanlıqlar barədə də danışıb. Onun sözlərinə görə, 2022-2023-cü illərdə dəyəri 40 milyon manatdan çox olan 254 adda 3 344 sayda avadanlıq, cihaz, alət və ləvazimat alınıb.

**Alınan avadanlıqlar:**

- Ana və uşaq sağlamlığının qorunması
- Geniş spektrli müayinələrin aparılması və dəqiq diaqnozların təyini
- İnstrumental müayinələrin aparılması
- Laporoskopik əməliyyatların icrası
- Reanimasiya tədbirlərinin yaxşılaşdırılmasına xidmət edir.

O bildirib ki, beynəlxalq əməkdaşlıq çərçivəsində Agentliyə ianə edilmiş avadanlıqların ümumi dəyəri 5 950 000 manatdır. Həmin avadanlıqların sırasında defibrilyator, anesteziya aparatı, süni tənəffüs cihazı, yenidoğulanlar üçün küvez, radiant qızdırıcı, fototerapiya cihazı, holter monitorunu və s. qeyd etmək olar.

## 5.3.18. gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Erkən və qeyri-rəsmi ailələrin qurulması gələcəyimiz üçün təhdiddir

### Gülnarə Məmmədova: "Bu halların qarşısının alınması üçün Komitənin valideynlərin məsuliyyətinə yönəlmiş maarifləndirmə tədbirləri daha da gücləndirilib"



***Azərbaycanın ailə modeli dünyaya örnəkdir. Xalqımız ailə dəyərlərini əsrlərdir qoruyaraq yaşadır. Azərbaycan ailəsi uzunömürlüyünə görə dünya xalqlarına nümunə çəkilir. Amma son illər Azərbaycanda ailələrdə dünyaya gələn nikahdankənar uşaqların sayının artması narahatlıq yaradır. Azərbaycanda 2022-ci ildə anadan olan hər 7 uşaqdan birinin anası rəsmi nikahda olmayıb. Bu barədə məlumatı Dövlət Statistika Komitəsi (DSK) yayıb.***

Qurumun rəsmi qeydə alınmamış nikahda olan qadınlar tərəfindən doğulan uşaqların sayı ilə bağlı yeni rəqəmlərindən məlum olur ki, əvvəlki illərlə müqayisədə ölkəmizdə nikahdankənar doğulan uşaqların sayı artıb. Belə ki, 2011-ci ildə rəsmi qeydə alınmamış nikahda olan qadınlar tərəfindən doğulan uşaqların sayı 31 minə yaxın olub, növbəti illərdə azalma müşahidə edilib.

2021-ci ildən isə rəqəmlərdə yenidən artım başlayıb. Həmin ildə 17 500-dən çox belə doğulan uşaq olubsa, ötən il bu göstərici 7% artaraq 18 800-ü keçib. Bu da diri doğulan uşaqların 15%-ni təşkil edib. Yəni 2022-ci ildə anadan olan hər 7 uşaqdan birinin anası rəsmi nikahda olmayıb.

Statistikaya əsasən, rəsmi qeydə alınmamış nikahda olan qadınlar tərəfindən doğulan uşaqların 20%-dən çoxu Ədliyyə Nazirliyində yalnız ananın, qalanları hər iki valideynin ərizəsi əsasında qeydiyyata alınıb. DSK, həmçinin rəsmi qeydə alınmamış nikahda olan qadınlar tərəfindən doğulan uşaqların kənd və şəhərlər üzrə bölgüsünü də təqdim edib. Rəsmi nikahda olmayan qadınların dünyaya gətirdiyi uşaqların 62 faizi kəndlərdə doğulub. 1990-cı illərdə rəsmi qeydə alınmamış nikahda olan qadınlar tərəfindən doğulan uşaqların sayı şəhər yerlərində üstünlük təşkil edirdisə, 2003-cü ildən etibarən bu göstərici kənd yerlərində daha çox olub.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Ailə məsələləri şöbəsinin müdiri Gülnarə Məmmədova "Unikal"a açıqlamasında bildirib ki, nikahdankənar doğulan uşaqların sayının artmasının səbəbi rəsmi nikahdan yayınmalarla bağlıdır. Həmsöhbətimiz deyir ki, xüsusilə kənd yerlərində gənclərin rəsmi nikaha daxil olmasına o qədər də ciddi əhəmiyyət verilmir. Belə ailələrdə doğulan uşaqlar nikahdankənar doğulmuş kimi qeydiyyata düşür.

"Bəzən kənd yerlərində ailələr əsasən böyüklərin xeyir-duasını əsas tutur. Bu da həmin ailələrdə nikahdankənar uşaqların doğulmasına səbəb olur. Ailədə valideynlər rəsmi nikahda olmadığından, uşaqlar da nikahdankənar doğulmuş kimi qeyd edilir. Beləcə bu statistika artır" deyə G. Məmmədova bildirir. Onun sözlərinə görə, erkən nikahlar da nikahdankənar doğulan uşaqların statistikasını artırır: " Digər səbəb isə 16-17 yaşında qızların ailə qurmasıdır. Komitə belə halların qarşısını almaq üçün valideynlərin məsuliyyətinə yönəlmiş maarifləndirmə tədbirlərini daha da gücləndirib. Ona görə də valideynlər övladlarına qarşı məsuliyyətsiz davranmamalıdırlar. Qızlarını ər evinə göndərməklə yüklərini çiyinlərindən atmamalıdırlar. Rəsmi nikah toydan əvvəl baş tutmalıdır ki, doğulacaq uşaq nikahdankənar sayılmasın".

Azərbaycanda nikahdankənar evlilikdən dünyaya gələn uşaqların sayının artması uşaqların valideyn himayəsindən məhrum olmasına səbəb olur. Bu, Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023-2026-cı illər üçün dövlət proqramı"nda əksini tapıb. Belə ki, son illərdə əhaliyə göstərilən sosial xidmətlərin həcminin və sosial xidmətlərdən yararlananların sayının ilbəil artmasına baxmayaraq, bu xidmətlərə olan tələbat daha yüksək templə artmaqdadır.

Azərbaycan Uşaqlar Birliyinin sədri Kəmalə Ağazadə də nikahdankənar evlilikdən dünyaya gələn uşaqların sayının artmasının belə uşaqların baxımsız qalmasına, atılmasına səbəb olduğunu söyləyir. Həmsöhbətimiz deyir ki, rəsmi evlilikləri olmayan ailələr dağıldığı zaman yaxud da təsadüfi münasibətlərdən doğulan nikahdankənar uşaqlar uşaq evlərinə və sığınacaqlara yerləşdirilir. Ona görə də, vətəndaş nikahlarının qarşısı alınmalıdır ki, zərər belə ailələrdə doğulacaq uşaqlara dəyməsin: "Nikahdankənar doğulan uşaqlara atalığın müəyyən edilməsi, alimentin alınması uzun zaman alır. Tərəflər ayrıldıqda uşaq ortada qalır. Belə uşaqlar təhsildən kənar qalır. Onların təhsilə cəlb edilməsi üçün sənədləşdirilmə işlərinə uzun müddət vaxt tələb olunur. Ona görə də, ailə qurularkən rəsmi nikah şərt olmalıdır. Bütün valideynlər bunu öz övladlarına tövsiyyə etməlidirlər".

K. Ağazadə deyir ki, nikahdankənar doğulan uşaqlar bəzən zərərli vərdişlərə aludə olan valideynlər tərəfindən də dünyaya gətirilir. Onlar dünyaya gətirdikləri uşaq üzərində məsuliyyətlərini dərk etmədən onları rahatlıqla ataraq gedirlər. Birlik sədri sığınacaqda belə uşaqların az olmadığını, atılmış uşaqlarla bağlı dərhal Sosial Xidmətlər Agentliyinə məlumat verildiyini söyləyir.

Həmsöhbətimiz qeyd edir ki, ailə problemlərinin baş verməməsi üçün erkən nikahların qarşısının alınması, nikahdankənar ailələrin qurulmasına yol verilməməsi əsas şərtlərdəndir. O bu istiqamətdə gənc qızların və valideynlərin arasında maarifləndirmə tədbirlərinin daim aparılmasının vacib olduğunu söyləyir.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## Azərbaycanla Qətər arasında mədəni əməkdaşlıq müzakirə olunub

***Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirlinin nümayəndə heyəti 25-26 sentyabr tarixlərində Qətər Dövlətinin Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında iştirak edib.***

"Unikal" xəbər verir ki, səfər çərçivəsində Qədər Dövlətinin Mədəniyyət Nazirliyində bu ölkənin mədəniyyət naziri Şeyx Əbdülrəhman bin Həməd əl-Tani ilə görüş keçirilib.

Nümayəndə heyətini salamlayan Şeyx Əbdülrəhman bin Həməd əl-Tani iki ölkə arasında mədəni əlaqələrdən söz açıb, münasibətlərin daha da inkişaf etdirilməsinin vacibliyini qeyd edib. Bildirilib ki, mədəniyyət və informasiya sahəsində əlaqələrin inkişafı üçün geniş imkanlar mövcuddur.

Qətərli nazir Azərbaycanda olduğunu, ölkəmizin mədəniyyətini, insanlarını, mətbəxini sevdiyini bildirib. O, iki ölkənin qarşılıqlı mədəniyyət günlərinin keçirilməsinin, eləcə də muzey sahəsində təcrübə mübadiləsinin əhəmiyyətini vurğulayıb.

Nazir Adil Kərimli səmimi qəbula, İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci konfransında iştirak edən Azərbaycan nümayəndə heyətinə göstərilən xüsusi diqqətə və qonaqpərvərliyə görə təşəkkürünü bildirib. Qeyd olunub ki, dövlət başçılarımızın dostluq münasibətləri, digər sahələrdə olduğu kimi, mədəni əlaqələrin də inkişafına zəmin yaradıb.

Görüşdə Qətərin mədəniyyət naziri bu ilin noyabrında Bakıda keçiriləcək beynəlxalq kitab sərgisinə və 2024-cü ildə paytaxtımızda təşkil olunacaq VI Dünya Mədəniyyətlərarası Dialoq Forumuna da dəvət edilib.

Bu il Qətərdə Azərbaycan mədəniyyəti günlərinin keçirilməsinin planlaşdırıldığı və tədbirin təqviminin və proqramının dəqiqləşdirilməsi üzərində iş aparıldığı diqqətə çatdırılıb.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

## Şahbuzun icra başçısına yeni müavin təyin edildi

***Cəlal Paşayev Şahbuz rayon icra başçısının müavini təyin edilib.***



"Unikal" xəbər verir ki, bununla bağlı Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Rəfail Babayev sərəncam imzalayıb.

# Azərbaycanda bu qanunlar ləğv ediləcək



***Yeni Rəqabət Məcəlləsinin qüvvəyə minməsi ilə üç qanun ləğv ediləcək.***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında Rəqabət Məcəlləsinin müzakirəsi zamanı komitə sədri Tahir Mirkişili deyib.

O bildirib ki, Rəqabət Məcəlləsinin təsdiq edilməsi haqqında qanun layihəsinin qüvvəyə minməsi ilə "Antiinhisar fəaliyyəti haqqında", "Haqsız Rəqabət haqqında" və "Təbii inhisarlar haqqında" qanunlar ləğv olunacaq.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin qanunvericilik təşəbbüsü ilə Rəqabət Məcəlləsinin layihəsi sentyabrın 7-də Milli Məclisə daxil olub. Rəqabət Məcəlləsinin layihəsi 12 fəsil 84 maddədən ibarətdir.

# "Söyüdlüdə faaliyyət göstərən şirkət pozuntu hallarının olduğunu etiraf edib" - Nazir



***Gədəbəy rayonunun Söyüdlü kəndində fəaliyyət göstərən "Azərbaycan Beynəlxalq Mədən Şirkəti"(AIMC) bütün tövsiyələri, monitorinq nəticələrini qəbul edib və pozuntu hallarının olduğunu etiraf edib.***

"Unikal" xəbər verir ki, bunu Söyüdlü kəndində tullantıxana sahəsində monitorinqlərin aparılması və mövcud vəziyyətin qiymətləndirilməsi məqsədilə yaradılmış Komissiyanın sədri, ekologiya və təbii sərvərlər naziri Muxtar Babayev "Micon" Beynəlxalq Monitorinq Şirkətinin Gədəbəyin Söyüdlü kəndində tullantıxana sahəsində apardığı monitorinqin nəticələrinin təqdimatı ilə bağlı kənd sakinləri ilə görüşdə deyib.

O bildirib ki, qısa və uzunmüddətli tədbirlər görüləndən sonra burada yüksək texnologiyalara malik müəssisə yaradıla bilər: "Şirkət tərəfindən mövcud gölün 2,4 metr artırılması təklif edilib. Fəaliyyətin davam etdirilməsi üçün gölün həcmi artırılmalıdır. Bu, imkan verəcək ki, şirkət bir il ərzində işini davam etdirsin və digər texnologiyalara keçid etsin. Dövlət tərəfindən bunun üçün fürsət yaradıla bilər. Lakin pozuntular mərhələli şəkildə aradan qaldırıla bilər".

# Ambulator xəstələrə dərmanlar veriləcək

***Növbəti ildən ambulator şəkildə xəstələrə dərmanların verilməsi nəzərdə tutulur.***

Bunu İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Tibbi iddialar departamentinin rəhbəri Nərgiz Ağayeva deyib.

Onun sözlərinə görə, artıq bununla bağlı Nazirlər Kabinetinə təkliflər göndərilib: "Statistikaya əsasən ilk yerdə yüksək təzyiqdən əziyyət çəkənlərdir. Birinci mərhələdə onlara dərmanlar veriləcək. Mərhələli şəkildə digər xəstəliklər üzrə də dərmanların verilməsi həyata keçiriləcək".

# 30 il sonra qalıqları tapılan hərbçimiz dəfn olundu

***Birinci Qarabağ müharibəsi zamanı döyüşlərdə itkin düşmüş hərbçi Əsədov Vüqar Habil oğlunun qalıqları Qaradağ rayonunun Lökbatan qəsəbəsinə gətirilib.***

Vüqar Əsədovla yaşadığı evdə vida mərasimi keçirilib.

Vüqar Əsədov 31 avqust 1993-cü ildə Füzuli rayonunun Kürdmahmudlu kəndində itkin düşüb. Şəhidin meyitinin qalıqları Xocavənd rayonunun Edilli kəndində kütləvi məzarlıqda tapılıb. Şəhidin qalıqları Lökbatandakı Şəhidlər xiyabanında dəfn olunub. Dəfn mərasimində şəhidin yaxınları, Qaradağ rayon rəhbərliyi, ictimaiyyət nümayəndələri iştirak edib. Vüqar Əsədov Qaradağ rayonunda anadan olub. I Qarabağ müharibəsi başlayan ilk gündən torpaqlarımızın müdafiəsi üçün döyüşlərə qatılıb.

## ELAN

**FHN, Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti tərəfindən İbrahimov Bəybala ilham oğluna verilmiş AA 08091 nömrəli gəmi biletləri itdiyi üçün etibarsız sayılır.**

# TƏBİB 2023-cü ilin 8 aylıq göstəricilərini açıqladı

## Vüqar Qurbanov: "Yenilənmiş Xidmətlər Zərfi xəstəxanalara axını artıracaq"



***"2023-cü ilin 8 aylıq göstəricilərinə əsasən, icbari tibbi sığorta təminatı çərçivəsində icra edilən ümumi stasionar cərrahi tibbi xidmətlərin 69%-i TƏBİB-in tabeliyində olan tibb müəssisələrində, 31% -i isə özəl tibb müəssisələrində icra edilib".***

Bunu TƏBİB-in icraçı direktoru Vüqar Qurbanov yenilənmiş "Xidmətlər Zərfinin" təqdimatına dair tədbirdə çıxış edərkən deyib. "TƏBİB-n tabeliyində olan tibb müəssisələrində icra edilən stasionar cərrahi xidmətlər sırasında TOP-5 əməliyyatlar siyahısına nəzər salsaq, ginekoloji əməliyyatlar, hamiləlik, doğuş və zahılıq dövründə icra edilən mamalıq prosedurlarının sayı - 47%, həzm sistemində aparılan əməliyyatların sayı - 14%, sidikcinsiyyət sisteminin xəstəlikləri üzrə aparılan əməliyyat sayı - 12 %, travmatoloji, əzələ-skelet sistemində aparılan əməliyyatların sayı - 9%, tənəffüs sistemi xəstəliklərinin cərrahi müalicəsi üzrə əməliyyatların sayı - 5% və icbari tibbi sığorta təminatına alınmış cərrahi tibbi xidmətlərə görə ümumi sığorta ödənişlərinin 48%-ni təşkil edib.

TƏBİB-n tabeliyində icra edilməyən və ya qismən icra edilən cərrahi tibbi xidmətlərin ümumi sayı 31% təşkil etməklə, onlardan ürək-damar sistemində aparılan əməliyyatların sayı - 35%, gözdə aparılan əməliyyatlar - 28%, koronar angioplastika, vaskulyar stendlərin taxılması əməliyyatları - 23%, əzələ-skelet sistemində aparılan əməliyyatların sayı, o cümlədən oynaq endoprotezlərinin yerləşdirilməsi - 6% olub", - V.Qurbanov əlavə edib.

"Xidmətlər Zərfinə daxil olan tibbi xidmətlərin sayının artırılmasından öncəki icbari tibbi sığorta təminatına alınmış 2550 sayda tibbi xidmətin 80%-i TƏBİB-in tabeliyində olan tibb müəssisələrində icra edilib. Bunlar ambulator tibbi xidmətlər, laborator xidmətlər, fizioterapiya və reabilitasiya xidmətləri, stasionar terapevtik xidmətlər, həmçinin ilkin səhiyyə və təcili təxirəsalınmaz tibbi yardım xidmətləridir".

Bunu TƏBİB-in icraçı direktoru Vüqar Qurbanov yenilənmiş "Xidmətlər Zərfinin" təqdimatına dair tədbirdə çıxış edərkən deyib. O bildirib ki, TƏBİB-n tabeliyində icra edilməyən xidmətlər isə vətəndaşlara İcbari Sığorta üzrə Dövlət Agentliyi ilə müqavilələsi olan tibb müəssisələrinə TƏBİB-in tabeliyində olan tibb müəssisələri tərəfindən göndəriş vərəqəsi verilməklə təmin edilir.

"Ümumiyyətlə, xüsusi olaraq vurğulamaq istəyirəm ki, əvvəllər mürəkkəb əməliyyatları biz özəl tibb müəssisələrinə göndəriş etməklə icra edirdik, amma artıq əməkhaqqı sistemində aparılan islahatlar, xarici ölkələrdə təhsil almış və çalışmış həkimlərin tibb müəssisələrimizə cəlb olunması hesabına əlavə və dəyişikliklərdən öncəki 2550 tibbi xidmətin hamısını təqdim edə bilirik. Xidmətlər Zərfinə yeni daxil olan tibbi xidmətləri, çətin əməliyyatları da icra edə bilmək üçün əlimizdən gələni edirik. Məsələn, hazırda Yeni Klinikada orqan köçürülməsi, süni mayalanma, mürəkkəb fizioterapiya əməliyyatları, robotik cərrahiyyənin icrasını planlaşdırırıq".

V.Qurbanov qeyd edib ki, bütün tibb müəssisələrimizdə laparoskopik əməliyyatları icra edə bilmək üçün avadanlıqlar alınır, avtopark yenilənir, tibbi sərfiyyatın fasiləsiz olması üçün intensiv tədbirlər görülür.

"Xəstəxana idarəetmə sistemini daha mükəmməl etmək üçün çalışırıq. Xidmətlər Zərfinə daxil olan tibbi xidmətlərin 2550-dən 3315-ə qədər artırılması xəstəxanalara axını daha çox artıracaq. Məsələn, Abşeron Mərkəzi Xəstəxanasına gün ərzində 3000-dən çox xəstə müraciət edir, təqdim etdiyimiz tibbi xidmət sayı artıqda bu sayda artım müşahidə olunacaq. Bu səbəbdən tabeli tibb müəssisələrimizdə daha yaxşı və operativ xidmət göstərə bilmək üçün randevu sistemini, növbəli poliklinik sistemini tətbiq etmək zərurəti yaranıb. Həm gündüz, həm axşam saatlarında poliklinika xidmətini tətbiq etmək effektiv olar".

# Əhliman Əmiraslanov: "Onkoloji xəstəliklərin müalicəsinə 50 milyon ayrılıb, ancaq bu yetmir"



***"Orqan və toxuma transplantasiyası üzrə hazırda dünyada ilk yerdə İspaniyadır və Azərbaycan bu ölkə ilə müqayisə edilməyəcək səviyyədədir. Lakin ilk addımların atılması vacib məsələdir".***

Bunu Milli Məclisin Səhiyyə Komitəsinin sədri Əhliman Əmiraslanov yenilənmiş "Xidmətlər Zərfinin" təqdimatına dair tədbirdə çıxış edərkən deyib. O bildirib ki, orqan və toxuma transplantasiyası ilə bağlı artıq işlənmə mexanizmi Səhiyyə Nazirliyi tərəfindən hazırlanıb və dünya standartlarına uyğundur.

"Bu sahədə əvvəllər olan maneələrin tam əksəriyyəti ortadan götürülüb. Lakin orqan və toxuma transplantasiyası ilə bağlı məhdudiyyətlər var. Bu başa düşüləndir. Maliyyə tərəfi var və böyük vəsait tələb edir. Digər tərəfdən bu gün xəstəxanalarımızın imkanları məhduddur.

Bu gün özəl tibb xidmət sahəsi sürətlə inkişaf edir və onlara orqan və toxuma transplantasiyası üzrə icazə verilə bilər".

Ə.Əmiraslanov qeyd edib ki, iki geniş yayılmış xəstəliyin icbari tibbi sığortanın Xidmətlər Zərfinə salınmaması başa düşülən deyil.

"Bunlardan biri də onkoloji xəstəliklərdir, digəri isə ürək transplantasiyasıdır. Çünki onkoloji xəstəliyin müalicəsi böyük vəsait tələb edir. Bu gün onkoloji xəstəliklərin müalicəsinə 50 milyon manat vəsait ayrılıb. Lakin bu, xəstələrin tam müalicəsi üçün yetmir".

# Rayonlarda yeni subartezian quyuları qazılır, kanallar çəkilir

***Saatlıda yeni nov kanal çəkilib. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, Saatlı Suvarma Sistemləri İdarəsi 60000 hektardan artıq suvarma şəbəkəsi ilə əhatə olunmuş sahəyə xidmət edir.***

İdarənin balansında olan əkin sahələrini ümumi uzunluğu 1400 km-dən artıq olan suvarma kanalları, 2000 ədəddən artıq sayı olan hidrotexniki qurğu, 64 ədəd nasos aqreqatı və digər köməkçi vasitələrlə suvarma suyu ilə təmin edir. Plana əsasən suvarma suyunun əkin sahələrinə maneəsiz çatdırılması üçün suvarma kanalları daim lildən təmizlənir. Uzunluğu 267 km olan suvarma kanallarında 635 min m? mexanizmlə lildən təmizlənmə işi görülüb. Uzunluğu 139 km olan kollektor-drenaj şəbəkəsində isə 405 min m? mexanizimlə lildən təmizlənmə işləri həyata keçirilib. Həmçinin Araz çayında nasos stansiyaların yanında 184 min m? məcratəmizləmə işləri mexanizimlərlə yerinə yetirilib.



Bu il idarənin balansında olan əkin sahələrinin 19767 hektarına taxıl, 13553 hektarına yem bitkiləri, 12624 hektarına pambıq, 316 hektarına qarğıdalı, 2573 hektarına bostan-tərəvəz əkilib. Qalan sahələrdə isə digər bitkilərin əkini həyata keçirilib. Fermerlər sahələrini vaxtında suvardıqlarından məhsul yığımı zamanı yüksək məhsuldarlıq gözləyirlər.

2023-ci il ərzində Saatlı Suvarma Sistemləri İdarəsi tərəfindən 136 ədəd hidrotexniki qurğu, 2 ədəd xidməti bina, 2 ədəd nasos stansiyası, 1.4 km nov kanal cari təmir edilib. İdarə rayon əhalisinin əkin sahələrini suvarma suyu ilə təmin etməklə yanaşı, heyvandarlıq təsərrüfatlarını, başqa köməkçi təsərrüfatlarını da su ilə təmin edir. Rayon ərazisində 17856 hektara qədər sahə mexaniki üsulla, 49 ədəd nasos stansiyaları vasitəsilə yerinə yetirilir.

Qeyd edək ki, Saatlı Suvarma Sistemləri İdarəsi tərəfindən Əlisoltanlı kənd ərazisində 1 aqreqatlı nasos stansiyanın, Yeni Novruzlu, Mustafabəyli və Bəylik kəndlərinə xidmət edən nov kanalın 1 km əsaslı təmiri, Yeni Novruzlu kəndinin həyatyanı sahələrinə xidmət edən nasos stansiyanın əsaslı təmiri, Mircəlal və Gomuşçu kəndləri ərazisində kollektorlardan keçən borulu keçidlərin əsaslı təmiri işləri həyata keçirilib.

Göygöldə subartezian quyuları bərpa olunur. Dilqəm Şərifov bildirib ki, 2023-cü il ərzində suvarmanı tələb olunan səviyyədə həyata keçirmək üçün Göygöl Suvarma Sistemləri idarəsi cari dövr üçün nəzərdə tutulan bütün işləri tədbirlər planına uyğun olaraq yerinə yetirib. Kənd təsərrüfatı bitkilərinin suvarmasını həyata keçirmək məqsədi ilə kanalların su limitləri təsdiq edilərək, dövlət təsərrüfatlarının, fermerlərin, digər sudan istifadə edən qurumların və fiziki şəxslərin suya olan tələbatını təmin etmək üçün lazım olan bütün işlər görülüb. Suvarma suyunun itkisiz səmərəli və qənaətlə istifadə edilməsi üçün idarənin balansında olan kanallarda mexanizmlərlə 461 min.m3 həcmində lildən təmjzlənmə işləri görülüb. Əlavə olaraq 20 ədəd hidrotexniki qurğu, 12 ədəd hidropost cari təmir edilib, arxlarda və kanallarda 20 min kvm2 sahədə kolkosdan təmizləmə işləri aparılıb. Qapalı boru kəmərlərində 6.0 km uzunluğunda hissələrlə cari təmir işləri aparılmış, həmçinin beton kanallarda 8.0 km-dək hissədə cari təmir işləri yerinə yetirilib.

Rayon ərazisində sel sularından mühafizə tədbirlərinin həyata keçirilməsi sahəsində də müvafiq işlər görülüb. Belə ki, sel və daşqınların qarşısını almaq üçün Gəncəçay, Kürək çay, Qoşqar çayların məcraları mexanizmlə tənzimlənmiş, Nadel, Mollaosman, Qızılca və Bəhrəmbağ arxların və kanalların dəhnələri, şitlər, beton bloklar və digər vasitələrlə möhkəmləndirilib. İlin əvvəlindən rayon əhalisinin əkin sahələrinin suvrma suyu ilə təmin etmək, rayonda kənd təsərrüfatı məhsulları istehsalının artırılmasına zəmin yaratmaq məqsədi ilə balansda olan 296 ədəd subartezian quyularından 205 ədədi cari təmir olunub.

Subartezian quyularının bərpa olunaraq qazılması sakinlərin suya olan tələbatının ödənilməsində böyük rol oynayır. İndi sakinlər subartezian quyularının suyundan həm içməli, həmdə həyətyanı sahələrinin suvarılmasında istifadə edirlər.

Qeyd edək ki, Göygöl Suvarma Sistemləri İdarəsi 15210 ha suvarılan sahəyə xidmət edir. Bundan 12626 ha Göygöl rayonu, 2205 ha Gəncə şəhəri, 379 ha Daşkəsən rayonu ərazisində olan suvarılan torpaqlardır.

Samuxda yeni subartezian quyuları qazılır. Dilqəm Şərifov bildirib ki, Samux Suvarma Sistemləri İdarəsi, rayonun 30000 hektara yaxın suvarılan torpaqlarına xidmət edir. İdarənin balansında 580 ədəd subartezian quyusu və 26 ədəd nasos stansiyaları, 30 ədəd maşın-mexanizm var ki, bunların da hər biri işlək vəziyyətdədir. Əkin sahələrinin suvarılması üçün uzunluğu 726 km-dən uzun olan təsərrüfatdaxili və təsərrüfatarası kanallar mövcudur. Bundan 65,5 km təsərrüfatlarası, 658 km-i isə təsərrüfatdaxili kanallardır. Kanallar üzərində 3 km suötürücü kanal və 63 ədəd hidrotexniki qurğu da istismar olunur. Suvarmanın mütəşəkkil və itkisiz aparılması üçün kanallarda və çaylarda lildən təmizləmə işləri aparılır.

İdarə tərəfindən kanallarda suyun maneəsiz ötrülməsi üçün əl ilə lildən təmizləmə, kol-kosun təmizlənməsi, boru xətlərinin və hidrotexniki qurğuların təmiri, betonlanma işlərinin aparılması cari və əsaslı təmir işləri həyata keçirilib.

Subartezian quyularında 2023-cü il ərzində müvafiq olaraq 183 ədəd nasos, 14 ədəd elektrik avadanlığı təmir edilib. Nasos stansiyalarda isə mexaniki və elektrik avadanlıqları təmir edilib. Samux rayonu ərazisində hazırda subartezian quyularında bərpa işləri aparılır, yeni subartezian quyuları qazılır.

Hazırda qazılmaqda olan və bərpası aparılan quyular vasitəsilə sakinlərin suya olan tələbatı ödənilir. Artıq sudan çətinlik çəkən ərazilərdə də bu problem həllini tapır.

Qeyd edək ki, Samux rayon ərazisində bu il 12000 hektardan artıq taxıl, 770 ha xəsil və 800 ha təzə yonca səpilib. Əkilən taxıl sahələri suvarma suyu ilə təmin olunub və biçilərək götürülüb. Qalan bitkilərin suvarılması isə davam etdirilir.

***Hüseyn İsgəndərov***



## Ümumdünya prokurorlarının növbəti iclası Bakıda keçiriləcək

***Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Beynəlxalq Prokurorlar Assosiasiyasının 28-ci illik konfransı və ümumi yığıncağında iştirak etmək məqsədilə Londonda səfərdə olub.***

"Unikal" xəbər verir ki, assosiasiyanın Bayraq mərasimində çıxış edən Kamran Əliyev təşkilatın bayrağını rəsmən qəbul edərək, tədbir iştirakçılarını 2024-cü ilin sentyabrında Bakı şəhərində keçiriləcək ümumdünya prokurorlarının 29-cu konfransına dəvət edib. Daha sonra ölkəmizin, o cümlədən paytaxtımızın milli-mədəni və tarixi abidələrini əks etdirən videoçarx tədbir iştirakçılarına nümayiş etdirilməklə broşürlər, eləcə də, məlumat kitabçaları paylanılıb.

## Xaricdən Elektron Hökumət Portalına giriş məhdudlaşdırıldı

***Xarici ölkələrdən Elektron Hökumət Portalına giriş qismən məhdudlaşdırılıb.***

"Unikal" bu barədə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinə istinadən xəbər verir.

Qurum müxtəlif media qurumlarında "E-Gov.az" saytına kiber hücum edilməsi ilə bağlı yayılan məlumatlara aydınlıq gətirib.

"Məhdudiyyətin məqsədi mövcud vəziyyətlə bağlı tam rəqəmsal təhlükəsizliyin təmin edilməsi, vətəndaşlarımızın şəxsi məlumatlarının düşmənlərdən qorunmasıdır. Bu təcrübə xüsusi hallarda tətbiq edilir, yalnız müvəqqəti və önləyici xarakter daşıyır.

Hazırda Azərbaycandan olan istifadəçilər üçün Portal adi rejimdə işləyir. vətəndaşlardan heç bir şikayət daxil olmayıb, texniki proseslərlə bağlı hər hansı gecikməyə yol verilməməsi məqsədilə davamlı monitorinqlər aparılır", - deyə agentlik bəyan edib.

## Bakıda qumbara tapıldı

***Fövqəladə Hallar Nazirliyinin (FHN) "112" qaynar telefon xəttinə Bakı şəhərinin Suraxanı rayonu ərazisində hərbi sursatın aşkar edilməsi barədə məlumat daxil olub.***



FHN-dən "Unikal"a bildirilib ki, məlumatla əlaqədar dərhal FHN-in Xüsusi Riskli Xilasetmə Xidmətinin (XRXX) minalardan təmizləmə üzrə çevik qrupu hadisə yerinə cəlb edilib. Hüquq-mühafizə orqanı əməkdaşları ilə birgə ərazidə müvafiq təhlükəsizlik tədbirləri görüldükdən sonra hadisə yerinə baxış zamanı sursatın döyüş tətbiqinə yararlı 1 ədəd RQO əl qumbarası və partladıcısı olduğu müəyyən edilib.

Sursat XRXX-nin çevik qrupunun mütəxəssisləri tərəfindən ərazidən götürülərək kənarlaşdırılıb. Hadisə yerində və ona yaxın ətraf ərazidə əlavə axtarış zamanı başqa hər hansı təhlükəli və ya şübhəli əşya aşkar edilməyib.

# "İrəvanın bu hərəkəti düşmənçilikdir" - Peskov



***Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov Ermənistanın "Roma Nizamnaməsi"ni ratifikasiya etmək qərarını Rusiya Federasiyasına qarşı "son dərəcə düşmənçilik" adlandırıb.***

"Unikal" xəbər verir ki, o, bu barədə yerli mətbuata açıqlama-sında deyib.

Peskov həmçinin bildirib ki, Rusiya bu qərarı alqışlamır. Onun sözlərinə görə, Kreml İrəvanın Moskva ilə bu məsələ ilə bağlı razılaşma təklifinin təfərrüatlarını bilmir.

Qeyd edək ki, Ermənistan bu nizamnaməni qəbul etdiyi təqdirdə Putin Ermənistana gəlsə, dərhal həbs olunacaq.

***Gülayə Mecid***

# "Qarabağda erməni qalmayacaq" - Paşinyan

***Təhlillər göstərir ki, Qarabağda daha erməni qalmayacaq.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistanın baş naziri Nikol Paşinyan hökumətin növbəti iclasında bildirib.

"Qınama bəyanatlarından sonra ekvivalent siyasi və hüquqi xarakterli qərarlar qəbul edilmirsə, qınaq baş verənlərə razılıq aktına çevrilir. Bu gün bizim əsas vəzifəmiz Qarabağdan köçən qardaş və bacılarımızı ən qayğıkeş şəkildə qəbul etmək və onların təcili ehtiyaclarını təmin etməkdir", - deyə Paşinyan qeyd edib.

***Ağarza Elçinoğlu***

# Erməni diplomatlar istefa verir - KİV

***"Son günlər baş verən faciəli hadisələr fonunda Ermənistan Respublikasının dövlət quruluşunda xaos hökm sürür".***



"Unikal" xəbər verir ki, bu barədə Ermənistanın "Past" qəzeti məlumat yayıb. Nəşr bildirir ki, ölkənin Baş naziri Nikol Paşinyanın dövlət sisteminin daxildən parçalanmaması istiqamətində böyük səylərinə baxmayaraq, hazırda heç bir nəzarət mexanizmi işləmir.

"Ermənistanın müxtəlif ölkələrdə akkreditə olunmuş ondan çox konsulu istefa ərizəsi ilə müraciət edərək, belə biabırçı şəraitdə Ermənistan hakimiyyəti ilə işləmək fikrində olmadıqlarını bildirib. Həmçinin, son bir həftə ərzində erməni diasporunun nümayəndələri Ermənistan Respublikasının müxtəlif ölkələrdəki səfirləri və konsulları ilə çox sərt söhbətlər apararaq, Ermənistan hakimiyyətinin "anti-Artsax" və ümumiyyətlə anti-erməni siyasətini kəskin tənqid ediblər. XİN-dən də bizə bildirdilər ki, bir neçə səfir də istefa vermək istəyib, lakin onlarla ayrı-ayrılıqda söhbətlər aparılıb, onları heç olmasa indiki mərhələdə öz vəzifələrində qalmağa inandırmağa çalışıblar", - nəşr yazıb.

***Gülayə Mecid***

# Ermənistan parlamenti Roma Nizamnaməsini ratifikasiya edəcək

***Parlament tərəfindən ratifikasiya olunarsa, Roma Nizamnaməsi 60 gün ərzində qüvvəyə minəcək.***

"Unikal" xəbər verir ki, bu barədə Beynəlxalq Hüquq Məsələləri üzrə nümayəndə Yeqişe Kirakosyan Ermənistan Parlamentinin dövlət-hüquq məsələləri daimi komissiyasının iclasında bildirib.

O, Roma Əsasnaməsinin ratifikasiyası layihəsini təqdim edərkən deyib ki, statusun qüvvəyə minməsi ilə bağlı qaydalar var: "Əsasnamədə onun qüvvəyə minməsi prosedurunu nəzərdə tutan müddəalar var. Qanun daxili prosedurların başa çatması barədə bildirişin Məhkəməyə göndərilməsindən sonra qüvvəyə minməsi üçün 60 günlük müddət nəzərdə tutur. Bu, beynəlxalq müqavilələrdə qəbul edilmiş təcrübədir".

Bildirilib ki, parlamentin dövlət-hüquq məsələləri daimi komissiyası artıq Roma Statutunun ratifikasiyası məsələsini müzakirə edib.

***A.Elçinoğlu***

# Qarabağdakı qondarma qurum özünü buraxdı

***Qarabağdakı qondarma rejim özünü buraxdığını elan edib.***

"Unikal" xəbər verir ki, bu barədə separatçıların "prezidenti" Samvel Şahramanyan "fərman" imzalayıb.

O, bütün qondarma dövlət qurumlarını ləğv edərək əhalini Azərbaycanın reinteqrasiyası üçün şəraitlə tanış olmağa çağırıb: "Mövcud ağır hərbi-siyasi vəziyyətlə əlaqədar olaraq, Rusiya sülhməramlı qüvvələri komandanlığının vasitəçiliyi ilə əldə edilmiş razılaşmanı nəzərə alaraq, insanların fiziki təhlükəsizliyinin və həyati maraqlarının təmin edilməsi prioritetinə əsaslanaraq Azərbaycan Respublikasının nümayəndələri ilə razılaşdırılıb ki, Qarabağ sakinlərinin, o cümlədən silahı yerə qoymuş hərbi qulluqçuların əmlakı Laçın dəhlizi ilə sərbəst, könüllü və maneəsiz gediş-gəlişi Azərbaycan Respublikasının Qanununun 93-cü maddəsini rəhbər tutmaqla təmin edilir.





1. 2024-cü il yanvarın 1-dək idarə tabeliyində olan bütün dövlət qurumları və təşkilatları ləğv edilsin və Dağlıq Qarabağ Respublikası (Azərbaycanın Qarabağ iqtisadi rayonu - red.) öz fəaliyyətini dayandırsın.

2. Qarabağın əhalisi, o cümlədən respublikadan kənarda yerləşənlər bu Fərman qüvvəyə mindikdən sonra müstəqil və fərdi qərar qəbul etmək məqsədi ilə Azərbaycan Respublikasının təqdim etdiyi reinteqrasiya şərtləri ilə tanış olsunlar.

Bu fərman dərc edildiyi gündən qüvvəyə minir".

***Ağarza Elçinoğlu***

# "Qarabağdakı sülhməramlıların mövcudluğu əhəmiyyət kəsb etməyəcək" - Rus deputat

***"Dağlıq Qarabağ Respublikası"nın ləğvi hərbi əməliyyatların dayandırılması baxımından müsbətdir".***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Dövlət Dumasının Avrasiyaya inteqrasiya və həmvətənlərlə əlaqələr üzrə MDB işləri üzrə komitəsi sədrinin birinci müavini Viktor Vodolatski bildirib.

"Nəzərə alsaq ki, Ermənistan və onun lideri Paşinyan bütün görünən platformalarda Qarabağı Azərbaycan ərazisi kimi tanıyıb, indi respublikanın uzun müddət mövcud olan ləğvi prosesi gedir və təbiidir ki, erməni sakinləri Qarabağı tərk edirlər və çox güman ki, Ermənistanda, eləcə də Rusiyada yaşayacaqlar. Azərbaycan tərəfi bu ərazidə normal yaşayış üçün şərait yaradacaq, çünki bura artıq bütün hakimiyyət orqanları ilə onların ərazisidir", - deyə deputat bildirib.

O, həmçinin bölgədəki sülhməramlıların fəaliyyətindən də bəhs edib: "Təbii ki, orada yerləşən sülhməramlı qoşunlarımızın mövcudluğu əhəmiyyət kəsb etməyəcək, lakin buna üç dövlətin: Rusiya, Azərbaycan və Ermənistanın liderləri qərar verəcək, çünki hər üçü belə bir qərar qəbul edib".



Deputat vurğulayıb ki, Moskvanın prioriteti regionda hərbi əməliyyatların dayandırılmasıdır.

***Ağarza Elçinoğlu***

# "Bunu təklif etdik ki, Rusiyanın qorxuları aradan qalxsın"

***Ermənistan Rusiyanı Beynəlxalq Cinayət Məhkəməsinin (ICC) Roma Statusu ilə bağlı məsələnin hüquqi həlli üçün ikitərəfli saziş imzalamağa dəvət edib.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistanın beynəlxalq hüquq məsələləri üzrə nümayəndəsi Yeqişe Kirakosyan brifinqdə bildirib.

"Biz Rusiya Federasiyasına ikitərəfli saziş bağlamağı təklif etmişik ki, Roma Əsasnaməsi Ermənistan tərəfindən ratifikasiya olunarsa, Rusiyanın qorxuları aradan qalxsın", - o deyib.

Qeyd edək ki, Ermənistan parlamentinin müvafiq komissiyası Roma Statutunun ratifikasiyası haqqında qanun layihəsini bu gün qəbul edib.

***Ağarza***

# "Paşinyan və İlham Əliyevin görüşündə ciddi qərarlar qəbul edilə bilər" - KİV

***"Oktyabrın 5-də Qranadada Ermənistanın baş naziri Nikol Paşinyanla Azərbaycan Prezidenti İlham Əliyev arasında görüş planlaşdırılır. Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan sentyabrın 26-da mümkün görüş barəsində Brüsseldə Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevlə danışıqlar apardı".***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistanın "Joqovurd" qəzeti məlumat dərc edib.

Nəşr bildirir ki, Ermənistan və Azərbaycan rəsmilərinin müzakirəsi, əsasən liderlərin görüşü barədə olub:

"Görüş həmçinin iştirakçılara 5 oktyabr 2023-cü il tarixində Qranadada keçirilməsi planlaşdırılan Avropa Siyasi Birliyinin üçüncü sammiti çərçivəsində liderlərin mümkün görüşü ilə bağlı fikir mübadiləsi aparmaq imkanı verib. Və həmin görüşdə qeyd olunub ki, Ermənistan və Azərbaycan münasibətlərin normallaşmasına yönəlmiş səyləri davam etdirmək üçün Qranada mümkün görüşdən istifadə etməkdə maraqlıdırlar. Oktyabrın 5-də keçiriləcək görüşdə sərhədlərin demarkasiyası, təhlükəsizlik, kommunikasiyalar, humanitar məsələlər və sülh müqaviləsi ilə bağlı məsələlərin müzakirə olunacağı gözlənilir. Üstəlik qeyd olunur ki, nizamlanma prosesinin bütün istiqamətləri üzrə aydın hərəkətlərə və qəti kompromis həll yollarına ehtiyac var. Yeni oktyabrın 5-də gözlənilən liderlərin görüşündə ciddi qərarlar qəbul edilə bilər".

Qeyd edək ki, ölkə liderlərinin görüşü İspaniyanın Qranada şəhərində baş tutacaq.

***Gülayə Mecid***

# "Murad Musayev kimi danışanların cavabını vermək lazımdır" - Azər Məmmədov



***“Sabah”dan xal almağımız “Qəbələ” ilə oyundan əvvəl komandamızda ruh yüksəkliyi yaradıb. Çox vacib xal qazandıq. Məncə, bu, “Qəbələ” ilə oyunda öz təsirini göstərəcək”.***

Bu sözləri Qol.az-a açıqlamasında “Kəpəz”in baş məşqçisi Azər Məmmədov deyib. Gəncə təmsilçisi Misli Premyer Liqasının 8-ci turunda “Qəbələ”ni qəbul edəcək. Komandanın çalışdırıcısı ev oyununda yaxşı nəticəyə ümid edir: “Biz evdə oynadığımız 4 matçdan 3-də uduzmuşuq. Bu dəfə doğma azarkeşlər önündə qalib gəlmək istəyirik. Evdə məğlubiyyət seriyasını qırmalıyıq. Düşünürəm ki, “Qəbələ” ilə oyunda yaxşı nəticə qazana bilərik”.

Maraqlıdır ki, “Kəpəz” bu mövsüm topladığı 5 xalı ötən mövsümün çempionu “Qarabağ”dan, gümüş medalçı “Sabah” və iddialılardan olan “Neftçi”dən alıb, digər oyunların hamısında uduzub. A.Məmmədov bununla bağlı da danışıb:

“Kəpəz”in baş məşqçisi kimi yox, bir başqa şəxs kimi qıraqdan baxsaydım, mənə də bu nəticələr maraqlı gələrdi. Komandamız xal götürməyi real görünən oyunlarda uduzub, çətin rəqiblərdən isə xallar almışıq. Futbolda hər bir komandadan xal almaq mümkündür. Biz hər oyunda bunun üçün çalışırıq. Sadəcə hadisələr bizim də gözləmədiyimiz kimi gedir. Biz də “Qarabağ”, “Sabah” və “Neftçi”dən yox, uduzduğumuz komandalardan xal almağı gözləyirdik. Çox adam bunu rəqiblərə daha fərqli yanaşma ilə əlaqələndirir. Amma belə deyil. Çünki biz elə bir komandayıq ki, bütün rəqiblərə qarşı tam məsuliyyətlə oynayırıq. Çünki Premyer Liqada qalmalıyıq. Motivasiyamız hər bir komandaya qarşı eynidir”.

A.Məmmədov son vaxtlar ünvanına səsləndirilən “istefa” şüarları haqda isə bildirib: “Bizim Premyer Liqadan düşmə təhlükəmiz var ki, bu da üzərimizdə təzyiq yaradır. Son oyunlarda “Kəpəz” azarkeşləri bir az səbirsiz davranır. “İstefa” şüarlarını nəzərdə tuturam. Bunlar təbii ki, futboloçulara da psixoloji təsir edir. Mənim üçün “istefa” şüarının kimə deyildiyinin fərqi yoxdur. Yəni ya mənə deyildi, ya da İdarə Heyətinin sədrinə, fərq etməz. Biz bir ailəyik. Futbolçuma qıraqdan nəsə xoşagəlməz söz deyiləndə elə bil ki, mənə deyilir. “İstefa” şüarı da komandaya təsir edir. Bu sözün mənasını hamı bilir.

Komandanın pis vaxtı da olur, yaxşı vaxtı da. Gərək pis vaxtda da komandanın yanında olasan. Biz “Kəpəz”in Premyer Liqada qalmasını istəyiriksə, mənfi şüarlarla yox, müsbət şüarlarla komandamızı dəstəkləməliyik”.

“Sabah”ın baş məşqçisi Murad Musayev “Kəpəz”lə oyundan (2:2) sonra mətbuat konfransında rəqib komandanın vaxtı çox uzatmasından şikayətlənib. Hətta o, “Mənim komandam nə vaxtsa belə oyun sərgiləsə, futbolu atıb gedib başqa işlə məşğul olaram” cümləsini də işlədib. “Kəpəz”in çalışdırıcısı rusiyalı mütəxəssisin bu fikrinə də münasibət bildirib. O qeyd edib ki, kimisə aşağılamağa heç kimə ixtiyar verilməyib:

“O kəlməni işlədən adam gərək dərindən düşünsün. Uğursuzluğu rəqib komandanın, onun baş məşqçisinin üstünə atmaqla çox uzağa getmək olmaz. İnsan gərək “mən” ifadəsini bir az az işlətsin. İnsan bir az təvazökar olmalı və problemi özündə axtarmalıdır. Bilirsiniz ki, “Sabah” bizim çempionatın ən yaxşı büdcəsi olan klublarından biridir. Əgər o büdcə, belə dəstəklə, bu cür keyfiyyətli futbolçularla bizə qalib gələ bilmirlərsə, başqa nəsə danışmaq düzgün deyil. Daha yaxşı olar ki, 18 mümkün xaldan niyə cəmi 5-ni yığmaları haqda düşünsün. “Partizan”la oyunlarını xatırlasınlar. Vaxtı nə qədər uzadırdılar.

Bizim futbolçular yerə əsassız yıxılmayıblar. Rəqib komanda çox sürətli idi. Ona görə də bu cür hallar baş verə bilər. Mən həmişə belə şeylərin əleyhinə olmuşam. Kapitan olanda da yıxılan futbolçunu dərhal ayağa qaldırırdım. Ömür boyu komandama vaxtı uzatmaqla bağlı tapşırığım ola bilməz. Əgər xal qazanmışıqsa, bunu hamı, əsas da Murad Musayev qəbul etməlidir. Biz futbolçularımızın əziyyəti hesabına bu xalı qazanmışıq. Futbolu belə şeylərə görə atmazlar. Futbolu atan elə bu cür büdcə ilə nəticə verməyəndə atar. Danışmağa nə var ki?

Mən futbol oynayanda həmişə problemlərdən qaçan olmuşam. Ancaq futbolumu oynamışam. Təəssüflər olsun ki, Murad Musayev məcbur etdi ki, susqunluğu pozum. Düşünürəm ki, belə danışanların cavabını vermək lazımdır. Heç kimə ixtiyar verilməyib ki, kimisə aşağılasın”.

***Ramiq Ağaməmmədov***

# Ağırlıqqaldırma Federasiyasına yeni prezident seçildi

***Azərbaycan Ağırlıqqaldırma Federasiyasında prezident seçkiləri keçirilib.***



Növbədənkənar ümumi yığıncaqda Azərbaycan Sənaye Korporasiyasının baş direktoru Kamran Nəbizadə federasiyanın yeni prezidenti seçilib.

Firdovsi Umudov və Mirsəməd Mövsümzadə isə vitse-prezident vəzifəsinə seçiliblər.

Gənclər və İdman Nazirliyinin inzibati binasında keçirilən tədbirdə federasiyanın adının dəyişdirilməsi də qərara alınıb. Azərbaycan Ağır Atletika Federasiyası bundan sonra Azərbaycan Ağırlıqqaldırma Federasiyası kimi qəbul olunacaq.

Yeni prezident Kamran Nəbizadə çıxış edərək, qurumun bundan sonrakı fəaliyyəti və qarşıdakı planları barədə danışıb. Sonda Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə yeni seçilən federasiya rəhbərliyinə uğurlar arzulayıb.

# Ronaldu məğlubiyyətsiz oyunlara görə dünya rekordu qırdı



***Səudiyyə Ərəbistanının “Əl-Nəsr” klubunun portuqaliyalı hücumçusu Kriştianu Ronaldu məğlubiyyətsiz oyunlara görə dünya rekordu qırıb.***

”Unikal” xəbər verir ki, hesablamalara görə, “Əl-Nəsr” - “Persepolis” oyunundan (2:0) sonra 38 yaşlı forvard artıq uduzmadığı min qarşılaşma keçirib.

Onlarda 776 qələbə qazanıb, 224 heç-heçə olub.

# "Neftçi”yə mətbuat katibi təyin edildi

***“Neftçi”də daha bir təyinat reallaşıb.***

”Unikal” klubun rəsmi saytına istinadən xəbər verir ki, “ağ-qaralar”ın mətbuat katibi müəyyənləşib.

Bu vəzifəyə Emin Əfəndi təyin edilib. 45 yaşlı Emin Əfəndi müxtəlif illərdə Azərbaycan Kubokunun finallarının açılış və bağlanış mərasimlərinə təşkilatçılıq edib. O, 2011-ci ildə Azərbaycanda keçirilən boks üzrə dünya çempionatının açılış və bağlanış mərasiminin baş prodüseri olub.

# "Neftçi" Tovuza oyundan 2 gün əvvəl yollanır



***“Neftçi” Misli Premyer Liqasının 8-ci turunda qarşılaşacağı “Turan Tovuz”la matçın hazırlığını davam etdirir.***

“Unikal” klubun rəsmi saytına istinadən xəbər verir ki, komanda bu gün “Neftçi” Futbol Mərkəzində növbəti məşqə çıxıblar.

Hazırlıq prosesi əsasən toplu və taktiki çalışmalardan ibarət olub. Bu gün Tovuza yola düşəcək “ağ-qaralar” oyunöncəsi son məşqi sabah Tovuz şəhər stadionunda keçəcək.

Qeyd edək ki, sentyabrın 30-da Tovuz şəhər stadionunda keçiriləcək “Turan Tovuz” - “Neftçi” matçı saat 16:00-da başlayacaq.

# PSJ-nin futbolçusu 4 ay müddətinə sıradan çıxdı

***PSJ-nin müdafiəçisi Nunu Mendeş yenidən zədələnib.***

Qol.az Fransa mətbuatına istinadən xəbər verir ki, portuqaliyalı oyunçu bud nahiyəsindən zədə alıb və təxminən 4 aya yaxın oynamayacaq.

Tibbi müayinədən sonra məşqçilər heyəti Mendeşi əməliyyat üçün Finlandiyaya göndərmək qərarına gəlib.

Qeyd edək ki, futbolçu PSJ-nin heyətində son oyununu hələ aprel ayında keçirmişdi. O vaxtdan bəri Nunu daim müxtəlif zədələrdən sağalıb, sonra yenə sıradan çıxıb.

# “Adana Demirspor” “Beşiktaş”ı məğlub etdi

***Türkiyə Superliqasının 3-cü turunun ertələnmiş matçında “Adana Demirspor” öz meydanında İstanbulun “Beşiktaş”ını qəbul edib.***

“Unikal” xəbər verir ki, Yeni Adana Stadionunda keçirilən oyun ev sahiblərinin 4:2 hesabı ilə qələbəsi ilə başa çatıb.

“Mavi şimşəklər”in qollarını 8-ci dəqiqədə Yunes Belanda, 17-ci dəqiqədə Mbay Nyanq, 59-cu dəqiqədə Emre Akbaba və 75-ci dəqiqədə Yusuf Erdoğan vurublar. “Ağ-qaralar”ın heyətində isə 79-cu dəqiqədə Vensan Abubakar və 89-cu dəqiqədə kosovalı Milot Raşitsa fərqləniblər.

Tarixində ilk dəfə “Beşiktaş”a 4 qol vura bilmiş “Adana Demirspor” rəqibini 35 il aradan sonra ilk dəfə yenib. İstanbul təmsilçisi “Trabzonspor” səfərindəki 3:0 hesablı ağır məğlubiyyətdən sonra ard-arda ikinci dəfə səfərdə qapısından xeyli sayda top buraxaraq yenilib.